63.3(2Az)
S-87



İLKİN ŞÜKÜRBƏYLİ

# UŞAQLARIN GÜNAHI NƏ?!



İLKİN ŞÜKÜRBƏYLİ
ILKIN SHUKURBEYLI

# UŞAQLARIN GUNAHI NƏ?!

# ARE THE BABIES GUILTY?!

MƏCBURİ NÜSXƏ

I kitab

I book

Azərbaycan Dövlət Uşaq
KİTABXANASI
İNV. № 86858

Bakı - Baku - 2002

Redaktoru: *Lamiyə Şükürbəyli*

***İlkin Şükürbəyli. "Uşaqların günahı nə?!". (Azərbaycan və ingilis dilində) Bakı, 2002.***

*Kitab müəllifin valideynlərinin şəxsi vəsaiti hesabına çap edilmişdir. Müəllif həmçinin bu kitabın çap olunmaısnda maddi və mənəvi köməklik göstərən Şuşa rayon təhsil şöbəsinin müəllim və şagird kollektivinə, Sabunçu rayonu 10 saylı internat məktəbinin rəhbərliyinə və onun pedoqoji kollektivinə, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Komitəsinin sədri Əhməd Əhmədzadəyə dərin təşəkkürünü bildirir. Allah bütün xeyirxah insanları qorusun.*

*Kitabın satışından əldə edilən vəsait növbəti kitabların çapına sərf olunacaqdır.*

$Ş \frac{4702060200}{104\text{-}02} - 2002$

*© İ.Şükürbəyli - 2002*



## GÖRÜŞ QALSIN QİYAMƏTƏ
*(ixtisarla)*

**Şəhid balam, bayram gəlib, həsrət qaldım o qamətə,**
**Behişt sənin, bayram sənin, görüş qalsın qiyamətə.**

**Allah yolunda vermişəm, şəhadətin nuşdur mənə,**
**Axirətin bahar olsun, dünya varkən qışdır mənə,**
**Şəhidlərin anaları məsciddə tay-tuşdur mənə,**
**Şəhadətin bir izzətdir, biz də çatdıq o izzətə,**
**Şəhid balam, bayram sənin, görüş qalsın qiyamətə.**

**Hər nə libasın var idi boxçaya bükdüm, bağladım,**
**Apardım verdim məscidə, ürək tapırsa(m) dağladım,**
**Şəhid anaların tapdım, bir oxşadım, bir ağladım,**
**Cəhadda qeyrət etməyən həsrət qalsın bu həsrətə,**
**Şəhid balam, bayram sənin, görüş qalsın qiyamətə.**

**Şəhadət bir səadət ki, hər kəs ona çata bilməz,**
**Allah ilə alım-satım hər kəs alıb-sata bilməz,**
**İnsan gərək özün atsın, hər kəs özün ata bilməz,**
**Təkcə şəhidlərdir çatan bunca böyük səadətə,**
**Şəhid balam, bayram sənin, görüş qalsın qiyamətə.**



# İLKİN ŞÜKÜRBƏYLİ

*(Qurbanov İlkin Faiq oğlu)*

İlkin Şükürbəyli (Qurbanov İlkin Faiq oğlu) 1985-ci ildə Qarabağın Füzuli bölgəsinin Şükürbəyli kəndində anadan olub. İkinci sinfə qədər doğma kəndində oxuyub. Sonra erməni təcavüzü ilə əlaqədar olaraq qaçqın düşüb. Uşaqlıq illərini qaçqınlıq şəraitində yeniyetməliyə çevirən İlkin hazırda Bakının Pirşağı qəsəbəsində fəaliyyət göstərən 6 saylı Şuşa rayon orta məktəbinin X sinfində oxuyur.

**AUTHOR**

Ilkin Shukurbeyli (Gurbanov Ilkin Faig oghlu) was born in 1985, in Shukurbeyli village, Fizuli region of Garabagh. Two classes of secondary school he studied in his native village. In connection of Armenian aggression he was displaced. Ilkin who changed, under refugee conditions, his childhood for adolescence, now studies in X class of the high school № 6 of Shusha city which, acts in Pirshaghi village of Baku city.



## YAŞIDLARIMA

Sözüm sizədir, mənim qayğısız, müharibə fəlakətlərindən uzaqda yaşayan həmyaşıdlarım. Üzümü sizə tuturam ay Türkiyədə, İngiltərədə, Fransada, Yaponiyada, İtaliyada, İsraildə, Amerikada, Afrikada, Avstraliyada, bir sözlə dünyanın hər hansı bir ölkəsində yaşayan həmyaşıdlarım.

Dərdin, möhnətin vaxtından tez böyütdüyü öz həmyaşıdınızı səbrlə dinləməyi bacaracaqsınızmı?! Elə isə dinləyin:

Mən 1985-ci ildə Azərbaycan Respublikasının Qarabağ bölgəsinin Şükürbəyli kəndində anadan olmuşam. İndi mənim dünyaya gəldiyim bölgə Ermənistanın işğalçı ordusunun əlindədir. Ermənistanın silahlı dəstələri Azərbaycanın ən qədim və səfalı bölgələrindən biri olan Qarabağın Dağlıq hissəsinə hücumlar edəndə mənim üç yaşım var idi. Mən düşmən toplarının, tanklarının, eləcə də raket qurğularının atdıqları mərmilərin dəhşətli mənzərəsi altında böyümüşəm. Ermənilər demək olar ki, hər gün bəzən elə olurdu ki, bir gündə 3-4 dəfə kəndlərimizi müxtəlif silahlardan və ağır hərbi texnikalardan atəşə tuturdular. Bunun nəticəsində çoxlu günahsız insanlar, o cümlədən körpə uşaqlar, qocalar, qız-gəlinlər, nənə-babalar yaralanır, və bəziləri aldıqları yaralardan ölürdülər. Bu kitabı oxuyanda görəcəksiniz ki, ermənilər azərbaycanlı uşaqlara necə zülm ediblər.

Ermənilərin təkcə Azərbaycanın kişiləri ilə yox, həm də körpə-körpə uşaqlarla da işgəncə müharibəsi apardıqlarının şahidi olacaqsınız. Yüzlərlə həmyaşıdımız erməni terrorunun qurbanı olub. Ümumiyyətlə, 80-90-cı illərdə Azərbaycanın Qarabağ ərazisində, o cümlədən həmin əraziyə yaxın olan

bölgələrdə doğulan həmyaşıdlarımızı bir neçə il Ermənistan ordusunun döyüşçüləri qorxu, səksəkə içərisində saxlamış, sonra isə hamısını doğma evlərindən zorla qovmuşlar. İndi minlərlə azərbaycanlı həmyaşıdlarımız valideynləri ilə birlikdə (bəzilərinin valideynləri də ermənilər tərəfindən qətlə yetiriliblər) qaçqın və məcburi köçkün vəziyyətindədir. Bu uşaqlar qışın soyuğunda və yayın istisində yaşayış üçün heç bir şərait olmayan çadırlarda əziyyət çəkirlər. Lakin işğalçı Ermənistan ordusu geri çəkilmək istəmir ki, bu uşaqlar doğma yurd-yuvalarına dönsünlər. Artıq 11 ildir ki, təcavüzkar Ermənistan beynəlxalq təşkilatların qərarlarına məhəl qoymur. Axı, bu uşaqların günahı nədir? Ermənistanın işğalçılıq hərəkəti nə vaxta qədər dava edəcək? Nə vaxta qədər günahsız uşaqlar erməni təcavüzünün qurbanı olacaqlar?

Ermənistan azərbaycanlı uşhaqlara qarşı xüsusi qəddarlıq nümayiş etdirib. Ermənistanın Azərbaycana qarşı başladığı haqsız və ədalətsiz müharibədə 18 min azərbaycanlı həlak olub, 50 min nəfər yaralanıb, 4959 nəfər isə itkin düşüb. İtkin düşənlərdən 71 nəfəri uşaq, 320 nəfəri qadın, 358 nəfəri isə yaşı 60-dan yuxarı olan şəxslərdir.

Hələlik 783 nəfərin əsir götürüldüyü barədə mə'lumat var. Onlardan 43-ü qadın, 56-sı qoca, 63-ü uşaqdır.

Ümumiyyətlə Ermənistanın təcavüzü nəticəsində 300 mindən çox azərbaycanlı uşaq doğma yurdundan qaçqın düşüb. 1024 nəfər isə minaya düşmüş azərbaycanlı uşaq var.

Ermənistan hökuməti bildirmişdir ki, guya 1992-2001-ci illərdə Ermənistanda 50-60 azərbaycanlı əsir var. Halbuki son 9 il ərzində 1092 nəfər əsirlikdən azad edilib. Onlardan 67-si uşaqdır. 18 nəfər uşağın əsir götürülməsini isə erməni tərəfi danır. Məsələn Qubadlı rayonu Çaytumas kəndindən olan 1982-ci il təvəllüdlü Məcnunova Səkinə İzzət qızı 30 avqust 1993-cü ildə əsir düşüb. Qarabağın Xankəndi



şəhərində saxlanılır. Erməni tərəfi əsirlik faktını inkar edir.

Tovuz rayonunu Düzqırıxlı kəndindən olan 1978-ci il təvəllüdlü Nağıyev Elşən Qiyas oğlu 20 avqust 1993-cü ildə Beyləqan rayonunu Ağburunlu kəndində əsir düşüb. Dağlıq Qarabağın Xankəndi şəhərində saxlanılır. Ermənistan tərəfi əsirlik faktını inkar edir.

Əsir və girovların içərisində bu qədər qadın, uşaq və qocanın olması göstərir ki, Ermənistan, həmçinin mülki əhaliyə qarşı xüsusi qəddarlıq nümayiş etdirib. Amma Ermənistan tərəfi törətdiyi cinayətləri ört-basdır etməyə çalışır və bu statistika ilə bağlı heç nəyi boynuna almır.

Əsir qaldıqları müddətdə uşaqlar ermənilər tərəfindən dəhşətli, ağlasığmaz işgəncələrə məruz qalıblar.

Məmişova İmarətin gözləri qarşısında Taleh adlı 8 yaşlı oğlunu güllələyib, sonra isə yandırıblar.

Hazırda Bakının Mərdəkan qəsəbəsində yaşayan 15 yaşlı Məmmədova Nəzakətin gözləri qarşısında atasının qulaqlarını kəsiblər. Nəzakəti ailəsinə 4 milyon rus rubluna dəyişiblər.

Yeddi aylıq Babək İlyasovun anası Afəti körpəyə rəhm etmədən güllələyiblər. 4 aydan sonra başqa əsirlərlə birlikdə qaytarılan Babəkin bir gözü tökülüb.

Əziz həmyaşıdlar bu kitabı oxuyun, oradakı şəkillərə diqqətlə baxın.

Yalnız bundan sonra özünü "yazıq", "kimsəsiz" kimi qələmə verən ermənilərin vəhşi xisləti ilə tanış olacaqsınız.

**İlkin Şükürbəyli**
X sinif şagirdi.

# FOREWORD

### *To the Boys and Girls of my Age*

I apply to you, my careless friends living far from disasters of war!. I apply to you, boys and girls of my age, living in Turkey, England, France, Japan, Italy, Israel, America, Africa, Australia, in short, in any country of the world!

Could you have enough patience to listen to me, a boy of your age, grown up prematurely by grief and misfortune? Then listen, please.

I was born in 1985 Shukurbeyli village of Karabakh region of Azerbaijan Republic. Now the region where I was born is under the occupation of Armenia. I was only three years old when the armed groups of Armenia started attacks to one of Azerbaijan's ancient and lovely places Karabakh. I have grown up under terrible scenes of enemy's guns, tanks and cannon balls. Everyday or sometimes three or four times a day the Armenians centered our villages fires from different guns and military equipment. As a result of that, many innocent people including the olds, girls and brides, grandfathers and grandmothers were either wounded or killed. Reading this book, you'll see how the Armenians oppressed the Azerbaijani children and waged a torture war against not only Azerbaijani men but also the little babies. Hundreds of children of our age became victims of Armenian terrorism.



Generally, in the period of 80-90th years the children in the Azerbaijan's territory of Karabakh and near it lived under fear and anxiety and later driven out of their native houses by Armenian armed groups. Now thousands of Azerbaijani children together with their parents (parents of some of them have been killed by Armenians) have become refugee or internally displaced. In winter cold and summer hot these children have much uneasiness living in tents with no living conditions. But the aggressive Army of Armenia is not going to withdraw, so the children could return to their native lands.

It's already eleventh year that the aggressive Armenia neglects the decisions of international organizations. What have these children done wrong? How long will the aggressive acts of Armenia last? How long will the innocent children be victims of Armenians aggression?

Dear children of my age, read this book, look attentively at these photos. Only after this you will be acquainted with the Armenians' wild character that pretend as "poor", "defenseless".

***Ilkin Shukurbeyli***
Pupil of X form



## Two-months child

of Akbar, inhabitant of Shirazli village, Vedi (Ararat) region

Born in 1988. Killed savagely by Armenians

## İKİ AYLIQ UŞAQ

«Ermənistanın» Vedi (Ararat) rayonunun Şirazlı kənd sakini Əkbərin 1988-ci ildə anadan olmuş iki aylıq uşağı ermənilər tərəfindən vəhşiliklə qətlə yetirilmişdir.



## MAMMADOV RAHMAN ALI OGHLU

born in the village of Jiliza, Allahverdi (Armenians changed and gave the name of Tumanyan) region, Western Azerbaijan (now Armenia), 1985.

Killed in genocide 1988-89 made by Armenia against Azerbaijanis of "Armenia".

## MƏMMƏDOV RƏHMAN ƏLİ OĞLU (4 yaş)

1985-ci ildə Qərbi Azərbaycanın (indiki Ermənistan) Allahverdi (ermənilər adını dəyişib Tumanyan qoymuşdular) rayonunun Cilizə kəndində anadan olmuşdur.

Erməni vəhşilərinin «Ermənistan» azərbaycanlılarına qarşı 1988-89-cu illərdə həyata keçirdikləri soyqırımı zamanı həlak olmuşdur.





## IBRAHIMOV ILGAR RASHID OGHLU (14 years old)

born on October 13, 1976, in Baku, pupil of 7 "a" class, school №167, Baku. Shot by embittered soldiers of Red Army on the night of January 19-20, 1990.

His dead body next was found morning in morgue of hospital named after Semashko. Buried in Martyrs Park.

## İBRAHİMOV İLQAR RƏŞİD OĞLU (14 yaş)

1976-cı il oktyabrın 13-də Bakıda anadan olmuşdur. Bakıdakı 167 saylı məktəbin VII[a] sinif şagirdi idi. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Qızıl Ordunun gözünü qan tutmuş əsgərləri tərəfindən güllələnmişdir. Səhərisi gün meyiti Semaşko adına xəstəxananın ölüxanasından tapılıb.

Şəhidlər Xiyabanında dəfn edilib.



## MƏMMƏDOVA LARİSA FƏRMAN QIZI (13 yaş)

1977-ci il avqustun 11-də Bakı şəhərində anadan olub. Bakıdakı 134 saylı məktəbin VII v sinfində oxuyurdu. Musiqi təhsili alırdı.

O müdhiş gecə - 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə atası Fərmanın işlədiyi parkın işçiləri ilə birlikdə L.Şmidt adına zavodun yanında «İkarus» avtobusunda oturduqları yerdə maşın güllələbaran edilmiş, Larisa ürək nahiyyəsindən güllə yarası almış, yerindəcə həlak olmuşdur. Atası Fərman isə ağır yaralanmışdır.

Larisanın anası Ukraynanın Donetsk vilayətindən öz səadətinin ardınca Azərbaycana gəlmiş Qalina Urvaçovna Məmmədova ümumxalq kədərini qəribə bir özünəməxsusluqla yaşayır.

Larisa Şəhidlər Xiyabanında dəfn edilmişdir.

## MAMMADOVA LARISA FARMAN GIZI (13 years old)

born in Baku, August 11, 1977. Studied in 7 "v" class, school №134, Baku. Was practicing music. That terrible night, the night from January 19 to 20, when the workers of park where Larisa's father Farman worked took their seats in the bus "Ikarus", near the factory named after lieutenant Shmidt, came under fire. Larisa was hit in the heart, died at once but her father Farman was badly wounded. Larisa's mother, Galina Urvachovna Mammadova, who had come to Azerbaijan to find her happiness, lives the national grief with strange, peculiar to her restraint. Larisa is buried in Martyrs Park.





## BESSANTİNA VERA LVOVNA (17 yaş)

1973-cü ildə hərbi qulluqçu ailəsində anadan olmuşdur. Milliyyəti yəhudidir. Bakı şəhərindəki 258 saylı orta məktəbin XI sinif şagirdi idi. 23 saylı musiqi məktəbinin skripka sinfini bitirmişdi...

17 yaşının içində idi. Martın 2-də 17 yaşı tamam olacaqdı, ad günündə qırxı verildi. Vera Bessantinanın ömrünün son akkordları isə 1990-cı il yanvarın 20-də vuruldu.

Yanvarın 19-dək Salyan kazarması ilə (rus qoşunlarının yerləşdiyi ərazi) üzbəüz binada yaşamışdır. O gecə kazarmadan hər yana atəş açılırdı, hətta yaşayış binalarına... Evin içindəcə Vera qarın nahiyyəsindən yaralandı.

Ailə üzvləri Veranın qarşısında diz çökdülər. Elə bu an diz çökənlərin başı üstündən fasiləsiz avtomat gülləleri divarlara sancıldı və evdə yanğın törəndi. Vera ordaca keçindi. Nakam bir qızcığazın ömrü beləcə sındı...

Məzarı Şəhidlər Xiyabanındadır.

## BESSANTINA VERA LVOVNA (17 years old)

born in the family of military officer, 1973. Jew by nationality. Pupil of XI form, school №258, Baku. Finished violin classes of the music school... 17 years of age. They were going to celebrate her 17th birthday on the 2nd March, but that day became 40th day of her death. January 20, Vera Bessantina's life played its last accords. On the night of January 19, all around even buildings were under fire from the direction of Salyan barracks. In the middle of the room, Vera was hit in her stomach. Members of the family gathered around her. Just at that moment tracer bullets lightened the walls of the room above those who knelt before the girl and the house appeared in fire Vera died. She is buried in "Martyrs Park".



## HÜSEYNOV NƏRİMAN VƏLİ OĞLU (15 yaş)

1975-ci ildə Tovuz rayonunun Xatanlı kəndində anadan olub. 42 No-li məktəbin VIII sinif şagirdi idi. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Nəriman atışma səsinə küçəyə çıxmış Salyan kazarmasının yanında avtomat güllləsi ilə yaralanmışdı. Məhəllə uşaqları onu xəstəxanaya apardılar. Onlar xəstəxanaya çatanda hər yan zülmət imiş. Semaşko adına xəstəxananın işığı söndürülübmüş.

Səhər tezdən onun meyidini həmin xəstəxananın meyidxanasından tapıblar. Ailənin yeganə oğlu idi. Anası xəstə olduğundan, iki bacısına da Nəriman qulluq edirdi. Lakin ömrü yarı yolda qırıldı. «Çox saylı güllələr döş qəfəsində sağalmaz yaralar açmışdır». Ölüm haqqında arayışda belə yazılmışdır. Məzarı Şəhidlər Xiyabanındadır.

**HUSEYNOV NARIMAN VALI OGHLU**
**15 years old**

born in the village of Khatanli, Tovuz region, 1975. Pupil of VII form, school № 42, Baku. On the night from 19 to 20, January, hearing voices of attack in the street Nariman went out and was struck of machine-carbine bullet near Salyan barracks where Russian soldiers had set in. Children from that block took him to hospital named after Semashko, when they reached the hospital all around was in darkness as the current was swatch off by the military men, but it was no use.

His dead body was found next morning in the morgue of that hospital. He was the only son of the family. As his mother was in poor health Nariman always took care of his two sisters. But his life appeared short. Numerous bullets opened incurable wounds in his chest. (This was issued in the death certificate.) Buried in Martyrs Park.





## NİKOLAYENKO ALLA ALEKSEYEVNA (17 yaş)

1973-ci ildə anadan olub. Salyan kazarmasının (sovet hərbi hissəsinin yerləşdiyi ərazi) yaxınlığındakı «Krasnıy Vostok» hərbi şəhərciyində atası ilə birlikdə yaşayırdı, Atası Aleksey hərbçi idi, Yanvarın 20-də hərbi xidmət ilə əlaqədar olaraq onların ailəsi Almaniya Demokratik Respublikasına getməliydi.

Lakin sən saydığını say, gör fələk nə sayır - deyiblər. Yanvarın 19-da axşam rus həbçilərinin ölüm saçan gülləsi səfərə hazırlaşan qızı evlərindəcə haxladı.

Alla Bakıdan getmək istəmirdi. Getmədi də... Əcəl saxladı onu sevdiyi bu şəhərdə... Aleksey kişi tək getdi. Allasız...

Məzarı «Volçi Vorot» qəbirstanlığındadır.

**NIKOLAYENKO ALLA ALEKSEYEVNA**
**(17 years old)**

born in 1973. Lived together with his father in "Krasny Vostok" contonment near Salyan barracks (territory where soviet military unit had set in). His father Aleksey was a service man. His family was going to go to Democratic Republic of Germany on January 20. But life is full of surprises ... pleasant and unpleasant. January 19, in the evening fatal bullet of Russian militaries caught the girl at home. Alla did not want to leave Baku and her wish became true ... fate stopped her in this city which she loved. And Aleksey, her father, had to leave Baku without Alla. Without Alla. Buried in "Volchi Vorot" graveyard.



## NƏSİROV ELVİN TOFİQ OĞLU (6 yaş) NƏSİROV MALİK TOFİQ OĞLU (4 yaş)

Nəsirov Elvin Tofiq oğlu, 1984-cü il fevralın 11-də, qardaşı Malik isə 1986-cı il fevralın 14-də Şərur rayonunun Sədərək kəndində anadan olmuşdur.

1990-cı il yanvarın 19-da erməni quldurlarının atdıqları top mərmisi bu iki körpənin ömrünə nöqtə qoydu. Qəlpə yarasından Elvin xəstəxanaya çatmamış, Malik isə xəstəxanada keçindi.

Sədərək kənd qəbiristanlığında dəfn olunublar.

## NASIROV ELVIN TOFIG OGHLU (6 years old)

## NASIROV MALIK TOFIG OGHLU (4 years old)

Nasirov Elvin Tofik oghlu was born on February 11, 1984 his brother Malik was born on February 14, 1986 in the village of Sadarak, Sharur region. In January 19, 1990 cannon shell-splinter thrown by Armenian barbarians put an end to lives of two children. Elvin at about the hospital and Malik in the hospital ... of shell-splinter wound. Buried in Sadarak graveyard.





## ƏLİYEV TURAL NADİR OĞLU (12 yaş)

1981-ci ildə Laçın rayonunun Qarabəyli kəndində anadan olub. 1993-cü il aprelin 1-də Kəlbəcərin Tunel adlanan sahəsindəki Zülfüqarlı kəndində erməni yaraqlıları tərəfindən qətlə yetirilib. Turalla birgə 40-a qədər azərbaycanlı, o cümlədən Turalın atası Nadir və anası Südabə də ermənilər tərəfindən güllələniblər. Ölənləri və yaralananları xilas olmaq istədikləri «KamAz» markalı maşının kuzovunda ermənilər od vurub yandırıblar.

Hadisə zamanı Turalın 7 güllə yarası almış 17 yaşlı bacısı Yeganə və 5 güllə yarası almış 14 yaşlı qardaşı Müşfiq yaralı halda maşından yerə yıxılaraq təsadüf nəticəsində yandırılmamış və girov götürülmüşdür. Erməni qəddarlığının şahidi olan Yeganə 7 ay 15 gün, Müşfiq isə 2 il 8 ay düşmənlərin işgəncələrinə məruz qalmışlar.

## ALIYEV TURAL NADIR OGHLU

12 years old

born in the village of Garabeyli, Lachin region, 1981.

Killed by Armenian enemies in Zulfugarli village of the so-called "Tunnel territory" of Kalbajar region, April 1, 1993. Together with Tural about 40 Azerbaijanis, including Tural's father Nadir and mother Sudaba were killed by Armenians. Those who were dead or wounded, the Armenians burnt out in the body of "Kamaz" vehicle by which they tried to escape. In this act could escape only Tural's 17 years old sister Yegana, who got 7 bullet wounds and his 14 years old brother Mushfig, who got 5 bullet wounds and fell occasionally down from the vehicle in wounded state were not burnt but taken hostage. Yegana underwent to Armenians terrible tortures for 7 months and 5 days and Mushfig 2 years and 8 months.



KİTABXANASI
İNV. № 86858.



## MAHMUDOV EMİN MƏTLƏB OĞLU (14 yaş)

1978-ci ildə Füzuli rayonunun Yuxarı Əbdürrəhmanlı kəndində anadan olmuşdu. Kəndlərindəki orta məktəbin IX sinifində oxuyurdu.

Könüllü olaraq «N» saylı hərbi hissəyə daxil olmuşdu. Səngərlərdə, postlarda, döyüşlərdə iştirak edirdi.

1992-ci il avqustun 26-da BMP qəzası nəticəsində həlak olmuşdur.

**MAHMUDOV EMIN MATLAB OGHLU (14 years old)**

born in the village of Abdurrahmanli, Fuzuli region, 1978, senior class pupil of local school. Entered voluntarily military unit № "N" participated in trench post battles. Died in BMP catastrophe, August 26, 1992



## TALIBOVA SAMİRƏ MÜSRÜF QIZI (9 yaş)

1983-cü ildə Füzuli rayonunun Qacar kəndində anadan olmuşdur. 1992-ci il sentiyabrın 4-də qrad mərmisindən həlak olmuşdur. Atası Müsrüf isə döyüşlərin birində itkin düşmüşdür.

**TALIBOVA SAMIRA MUSRUF GIZI**

born in the village of Gajar, Fuzuli region, 1983 Died of "Grad" shell on September 4, 1992. Her father Musruf was missed in one of the battles





## ƏLİYEVA RAİFƏ KAMAL QIZI (14 yaş)

1978-ci il iyul ayının 18-də Füzuli rayonunun Yuxarı Yağlıvənd kəndində anadan olub.

1992-ci ilin avqust ayında təyyarədən atılan bombalardan biri beş bacını ağır yaraladı. Onları Bakıdakı M.Nağıyev adına xəstəxanaya çatdırdılar.

9 gün ölümlə çarpışan Raifəni həyata qaytarmaq mümkün olmadı. 4 bacısı isə yaralandı.

**ALIYEVA RAIFA KAMAL GIZI (14 years old)**

born in the village of Yukhari Yaghlivand, Fuzuli region, July 18, 1978. One of the bombs thrown from the bombing - aircrafts on wounded five sisters. They all were taken to hospital named after Musa Naghiyev, Baku. But it was impossible to return her to life who struggled against death for 9 days. What concerns Raifa's 4 sisters they became invalids for ever.



## QULİYEV ÇİNGİZ BARAT OĞLU (17 yaş)

1975-ci ildə Füzuli rayonunun Qarğabazar kəndində anadan olub. Sonra valideynləri ilə birlikdə Sumqayıt şəhərinə köçüb. Sumqayıt şəhər gənclərdən ibarət futbol üzrə yığma komandanın tərkibində bir-neçə rəsmi yarışlarda iştirak edib.

**GULIYEV CHINGIZ BAYRAM OGHLU (17 years old)**

born in the village of Garhgabazar, Fuzuli region, 1975. Later together with his parents moved to Sumgayit. Took part in several official competitions in combined football team.

1992-ci ildə 17 yaşlı Çingiz Füzuliyə gələrək kəndlərinin müdafiəsində iştirak edib. Həmin ilin avqust ayında Arış kəndinin müdafiəsi zamanı yaralanıb qospitala düşüb. Sağalandan sonra yenidən cəbhəyə qayıdıb.

1992-ci ilin oktyabrın 30-da ermənilərin yaxın məsafədən atdığı qumbaradan ağır yaralanmış və həkimlərin ciddi-cəhdi bir nəticə verməmişdir.

In 1992, 17 year old Chingiz went to Fuzuli region, upheld the honour of his village. In August, of the same year, during the defen the Arish village, Chingiz was wounded and taken to hospital. Returned to front after having recovered. On October 30, 1992, was wounded of the grenade thrown from short distance. All attempts of the doctors appeared useless.



## SALIMOV ELCHIN KAMAL OGHLU

born in the village of Kohnakand, Lachin region, September 8, 1976. On June 21, 1990, before his father's eyes, the dashnaks killed Elchin subjecting him to thousand tortures, then they put out his eyes. They killed Elchin's father in the same way.

## SƏLİMOV ELÇİN KAMAL OĞLU (14 yaş)

1976-cı ilin 8 sentyabrında Laçın rayonunun Köhnəkənd kəndində anadan olmuşdu. 21 iyun 1990-cı ildə daşnaklar Elçini min bir əziyyətlə öldürmüşlər. Oğlunun dəhşətli qətlini gözlərilə görən atanı da balası kimi eyni kökə salıb qətlə yetirmişlər.





## BİR AİLƏDƏN 7 NƏFƏR

İçimizi yandırıb yeddi qatımızdan keçən bu faciə (təkcə bumu?) 1992-ci ilin oktyabr ayında baş vermişdir. Erməni təcavüzü nəticəsində doğma ocaqlarını tərk etmək zorunda qalan Hümbətovlar ailəsi Goranboyun Buzlaq kəndi yaxınlığında məskunlaşırlar. Didərginlər elə düşünürlər ki, ermənilərin vəhşiliyindən xilas olublar.

Sən demə...

Həmin gecə hücum edən erməni quldurları 24 nəfər günahsız azərbaycanlıların nahaq qanını axıdırlar.

Hümbətovlar ailəsi də faciə ilə üzləşib - Hümbətov Emin Vəzir oğlu (1980), Hümbətov İsmayıl (1984), Nəbat (1986), Bəxtiyar və Gülnarə (1988), Elnur (1990) və anaları Hürzaman Qara qızı (1959) da bu vəhşiliyin qurbanı oldular.

## 7 MEMBERS OF ONE FAMILY

This tragedy is this the only one? which agonizes us happened on October, 1992. The Humbatovs, forced by Armenian aggression had to leave their home and located not far Buzlag village of Goranboy region.

It seemed to refugees that they escaped, but...

That night Armenian barbarians attacked and killed 24 innocent Azerbaijanis. The Humbatovs, too, happened with tragedy - Humbatov Emin Vazir oghlu (1980), Humbatov Ismayil (1984), Bakhtiyar and Gulnara (1988), Elnur (1990) and their mother Hursaman Gara gizi (1959) became victims of that savageness.



## SƏFƏROV İLQAR ŞÜKÜR OĞLU (4 yaş)

1988-ci ildə Füzuli rayonunun Divanallar kəndində anadan olmuşdu. 1992-ci il iyunun 24-də ermənilərin atdığı top mərmilərindən biri Şükürün həyətinə düşür. Züleyxa Mürşüd qızı (1951) və dörd yaşlı oğlu İlqar həmin mərminin qurbanı olurlar.

Növbəti top mərmisi isə Şükürün hasarına düşür və hörgünün daşları 70 yaşlı anasının üstünə tökülüb onun qabırğalarını sındırır.

İlqarın qardaşı Nurəddin (1974) 1992-ci il iyunun 28-də Qırmızıbazar - Haçagədik istiqamətində gedən döyüşlərdə top mərmisindən həlak olmuşdur. Məzarı doğma kəndlərində anasının və qardaşının qəbri ilə yanaşıdır.

## SAFAROV ILGAR SHUKUR OGHLU

born in the village of Divanallar, Fuzuli region, 1988. In June 24, 1992, Shukur's yard appeared under one cannon shell-splinters. Zuleykha Murshud gizi (1951) and her four year old son Ilgar became victims of that shell.

Next cannon shell-splinter happened on the hedge of Shukur's house and the stones slipping out of the hedge broke ribs of 70 year old mother of Shukur. Ilgar's brother, Nuraddin (1974) died of Shukur's the cannon shell-splinter in battles in the direction of Girmizi bazar Hachagadik, June 28, 1992. Buried in local village graveyard near graves of his mother and brother.





## QURBANOV RÖVŞƏN HÜMBƏT OĞLU (13 yaş)

1979-cu ildə Füzuli rayonunun Dövlətyarlı kəndində anadan olub.

1992-ci il iyunun 27-də ermənilərin atdığı top mərmilərindən biri onların evlərinin üstünə düşmüş və bir ailədən dörd nəfəri, o cümlədən Rövşəni də öldürmüşdür.

## GURBANOV ROVSHAN HUMBAT OGHLU (13 years old)

born in the village of Dovlatyarli, Fuzuli region, 1979. On June 27, 1992, one of the cannon shell-splinters happened on the house and killed 4 members of one family, including Rovshan.



## QURBANOVA QIZBƏS HÜMBƏT QIZI (11 yaş)

1981-ci ildə Füzuli rayonunun Dövlətyarlı kəndində anadan olub.

1992-ci il iyunun 27-də düşmənin atdığı top mərmisi onu öz evlərində haqladı. Atası Hümbət (1945), anası Humay (1953), qardaşı Rövşən (1979) də Qızbəslə birlikdə həmin mərminin qurbanı oldular.

## GURBANOVA GIZBASS HUMBAT GIZI (11 years old)

born in the village of Dovlatyarli, 1981. On June 27, 1992, the cannon shell-splinter caught her at her home. Her father Humbat (1945), mother Humay (1953), brother Rovshan (1979) became also victims of that shell.



# TAHİROV HÜSEYN ZAKİR OĞLU (17 yaş)

1975-ci ilin aprel ayında Füzuli rayonunun Yuxarı Veysəlli kəndində anadan olub.

1992-ci il fevralın 22-də Veysəlli işğal edilən zaman 17 yaşlı Hüseyn kəndin müdafiəsində axıradək iştirak edib. Sonrakı taleyi məlum deyil.

**TAHIROV HUSEYN ZAKIR OGHLU (17 years old)**

born in the village of Yukhari Veysalli, Fuzuli region, 1975. 17 year old Elchin took part till the end in the defence of his village on February 22, 1992 when Veysally was occupied. Last fate is unknown.



# BAYRAMOVA NATAVAN PƏNAH QIZI (4 yaş)

1988-ci ildə Şuşada anadan olmuşdur. Atası Pənah kişi Ermənistandan ailəliklə qovulanlardan idi. 1990-cı ildə ailəsi ilə birlikdə Xocalıya gəlmişdir. Doğulandan top, raket atəşi altında böyüyürdü. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə anası Sara ilə birlikdə Xocalıda evdə qalmışdı. Anasının və özünün sonrakı taleyi məlum deyil.

**NATAVAN PANAH GIZI BAYRAMOVA**

born in Shusha, 1988. Her father Panah was one of those of driven away from Armenia. In 1990 he arrived in Khojali together with his family. Since his birth he had lived under voices of fire. In Khojali genocide - the night from 25 to 26, 1992 he stayed at home together with his mother Sara. Their last fate is unknown.





# ZEYNALOVA AYNURƏ TOFİQ QIZI (6 yaş)

1986-cı ildə Xocalıda anadan olmuşdur. Məktəbə getmirdi. Amma gedəcəkdi, əgər əcəl imkan versəydi. Əgər 1992-ci il fevralın 26-da faciə baş verməsəydi...

**ZEYNALOVA AYNURA TAFIG GIZI (6 years old)**

born in Khojali, 1986. Did not attend school, but she was going to if death allowed... If on February 26, 1992 a tragedy did not happen...



# ABBASOVA SƏADƏT ŞAHİN QIZI (11 yaş)

1981-ci ildə anadan olmuşdur.

1992-ci il yanvarın 28-də Ağdamdan Şuşaya uçarkən qəzaya uğrayan vertolyotda Abbasovlar ailəsinin də üç nümayəndəsi var idi.

Ata-Şahin Əli oğlu, ana-Sədaqət Kamran qızı, bir də 11 yaşlı Səadət Şahin qızı.

**ABBASOVA SAADAT SHAHIN GIZI (11 years old)**

born in 1981. In the helicopter, which crashed flying from Aghdam to Shusha on January 28, 1992 there were three members of the Abbasovs. Father - Shahin Ali oghlu, mother - Sadagat Kamran gizi and 11 year old Saadat Shahin gizi



## ABBASOV COŞQUN SÜLEYMAN OĞLU (1 yaş)

1990-cı il iyunun 8-də Şuşada anadan olmuşdu.

1991-ci il dekabrın 26-da Füzulidən Şuşaya gedərkən Daşaltı kəndi yaxınlığında ermənilər balaca Coşqunu, onun atasını, anası Kəmaləni və onları aparan taksi sürücüsü Namiqi (Füzuli rayonundadır) vəhşicəsinə qətlə yetirmişlər.

## ABBASOV JOSHGUN SULEYMAN OGHLU

born in Shusha, June 8, 1990. On December 26, 1991 When the family left was leaving Fuzuli for Shusha little Joshgun, his father, mother Kamala and the taxi driver Namig (he is from Fuzuli region) were savagely killed by Armenians near Dashalti village.



## KHALILOVA LALA TAHIR GIZI (4 years old)

born in Khojali, 1988. She was four years old. In that terrible tragedy Khojali tragedy on the night from February 25 to 26, 1992 the girl lost her father Tahir and mother Zarifa. Buried in Martyrs Park, Aghdam. Only Lala's 6 year old sister Hamayil and one-month Gulnar could escape.

## XƏLİLOVA LALƏ TAHİR QIZI (4 yaş)

1988-ci ildə Xocalıda anadan olmuşdur. Dörd yaşı vardı.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə o müdhiş faciədə - Xocalı faciəsində atası Tahiri və anası Zərifəni itirmişdi. Məzarı Ağdam «Şəhidlər Xiyabanı»ndadır. Laləgilin ailəsindən yalnız 6 yaşlı bacısı Həmayıl və bir aylıq Gülnar sağ qalmışdır.





## SƏFİYEV SARVAN ELXAN OĞLU (11 aylıq uşaq)

1991-ci il mart ayının 8-də Xocalıda anadan olmuşdur.

Xocalı soyqırımı zamanı Naxçivanik yaxınlığında soyuqdan donmuşdur. Məzarı Bərdə şəhərində dəmiryol yaxınlığındakı qəbiristanlıqdadır.

Sarvanın atası Elxan milli müdafiə batalyonunun fəal döyüşçüsü olmuş, faciə zamanı ermənilərin Xocalıya hücumunun qarşısını alarkən böyük şücaət göstərmişdir. Sonrakı taleyi məlum deyil.

## SAFIYEV SARVAN ELKHAN OGHLU (11 years old)

born in Khojali, March 8, 1991. Frozen near Nakhchivanik. Buried in the graveyard near railway station, Barda. Sarvan's father Elkhan, an active fighter of national defence battalion displayed courage in defence of Khojali from the Armenian aggressors. His last fate is unknown.



## SƏLİMOV XƏZƏR SƏYAVUŞ OĞLU (17 yaş)

1974-cü ildə Xocalıda anadan olmuşdur. Ordakı 1 saylı orta məktəbi bitirmişdi. 17 yaşı vardı. Ermənilərin törətdikləri soyqırımı zamanı Xocalıda qalmış anası Tamilə və bacıları ilə girov götürülüb Noraguğa aparılmışdır. Bir gün sonra bacıları buraxılmışdır. Anası isə Xəzərin boynunu qucaqlayıb ondan qopmamışdır. Beləliklə Xəzərlə anası Stepanakertdə qalmışdır. Sonrakı talelər məlum deyil.

## SALIMOV KHAZAR SAYAVUSH OGHLU (17 years old)

born in Khojali, 1974. Graduated from secondary school №1. 17 years old. In genocide 1988-89 made by the Armenians, Khazar was taken hostage to Noragugh together with his sisters and mother Tamila who had stayed in Khojali. After one day, Khazar's sisters were out freed. What concern's Khazar, his mother didn't want to be separate from him. So Khazar and his mother stayed in Stepanakert. Their last fate is unknown





## ORUCOVA XƏYALƏ TELMAN QIZI (6 yaş)

1986-cı ildə Əsgəran rayonunun Şuşakənd kəndində anadan olmuşdu.

1988-ci ildə ermənilər azərbaycanlıları öz yurdlarından qovarkən balaca Xəyalə valideynləri ilə birlikdə Xocalıya pənah gətirmişdi.

Ermənilərin Xocalıda törətdikləri soyqırımı zamanı Naxçıvanik ətrafında atası Telman (1957) və anası İradə (1964) ilə birlikdə həlak olmuşdur. Bacısı İradə isə iki yerindən yaralansa da xoşbəxtlikdən sağ qalmışdır.

Xəyalənin məzarı Ağdamdakı «Şəhidlər Xiyabanı»ndadır.

## ORUJOVA KHAYALA TELMAN GIZI (6 years old)

born in the village of Shushakand, Asgaran region, 1986. On 1988 when being driven away from their places by the Armenians. Little Khayala together with her parents took refuge in Khojali. Killed together with her father Telman (1957) and mother Irada (1964) near Nakhchivanik. Fortunately, her sister Irada escaped, though was wounded in two places. Khayala's grave is in Martyrs Park, Aghdam



## ORUCOVA NATAVAN NƏBİ QIZI (3 yaş)

1989-cü ildə Xocalıda anadan olmuşdur. Üç yaşı vardı. Xocalı faciəsi baş verən günü anası Mələk ilə qətlə yetirilmişdir.

Cəsədləri Xocalıda qalmışdır.

**ORUJOVA NATAVAN NABI GIZI (3 years old)**

born in Khojali, 1989. Third years old. Killed together with her mother Malak in Khojali genocide. Their dead bodies are in Khojali



**ORUJOVA MALAHAT ALI GIZI (17 years old)**

born in Azizbayov region, Armenian SSR, 1975. They came first to Nakhchivan, then Shusha and at last to Khojali. In Khojali tragedy she lost her brother Famil, their sister - in law Malak and nephew Nabi. Killed by the Armenians among "Finnish houses".

## ORUCOVA MƏLAHƏT ƏLİ QIZI (17 yaş)

1975-ci ildə Ermənistan SSR-in Əzizbəyov rayonunda anadan olmuşdu. 1988-ci ildə əvvəlcə Naxçıvana, sonra Şuşaya və nəhayət Xocalıya gəlmişlər. Xocalı soyqırımı zamanı qardaşı Famili, gəlinləri Mələyi və qardaşı oğlu Nəbini itirmişdir.

Xocalı faciəsi zamanı aşağı fin evlərinin arasında ermənilər tərəfindən öldürülmüşdür.





## ORUCOV CAVAN CANAN OĞLU (16 yaş)

1976-cı ildə Xocalıda anadan olmuşdur. II saylı orta məktəbdə oxuyurdu. Dağlıq Qarabağda erməni - Azərbaycan münaqişəsi başlayanda gecə-gündüz rahatlıq bilmir, kəndin keşiyini çəkirdi. Xocalı faciəsi zamanı atası Canan girov götürülmüşdür. Cavan Xocalıda qalmışdır, sonrakı taleyi məlum deyil.

**ORUJOV JAVAN JAHAN OGHLU**

born in Khojali, 1976, studied at Khojali secondary school. Since the beginning of Armenian-Azerbaijanian conflict, knowing no rest, Javan guarded the village. His father Jahan was taken hostage in Khojali genocide. Javan stayed in Khojali. His last fate is unknown.



**MURADOVA AYSHEN ZOHRAB GIZI (1 years old)**

born in the heat of "Alazan" rocket battles, 1991. And her uncle Zahid was also victim of "Alazan" rocket battles. Ayshen's grave is in Khojali graveyard.

## MURADOVA AYŞƏN ZÖHRAB QIZI (1 yaş)

1991-ci ildə Xocalıda ermənilərin yağdırdığı «Alazan» raketlərinin atəşi altında dünyaya göz açmışdır. Elə əmisi Zahid də ermənilərin yağdırdığı «Alazan»ın qurbanı olub. Ayşənin məzarı Xocalı qəbirstanlığındadır.

## MAMMADOV NIYAMADDIN VAGIF OGHLU (14 years old)

born in Khojali. Studied in I form of Khojali secondary school №1. Niyamaddin was the last child of the family. He was last Katik forest as the other members of the family. His last fate is unknown.



## MƏMMƏDOV NİYAMƏDDİN VAQİF OĞLU (14 yaş)

1978-ci ildə Xocalıda anadan olmuşdur. Xocalı 1 saylı orta məktəbin yeddinci sinfində oxuyurdu.

Niyaməddin ailənin sonbeşiyi idi. O, Xocalı faciəsində başqa ailə üzvləri kimi Kətik meşəsində itkin düşmüşdür.

Sonrakı taleyi məlum deyil.



## MAMMADOV JEYHUN VAGIF OGHLU (17 years old)

born in Khojali, 1975. Studied in XI form, Khojali secondary school №1. He was one of the brave elevenths. In that Khojali tragedy Jeyhun also reached till Katik forest together with his mother Afila, brothers Azar and Niyamaddin and missed there. His last fate is unknown.

## MƏMMƏDOV CEYHUN VAQİF OĞLU (17 yaş)

1975-ci ildə Xocalıda anadan olub. Xocalı 1 saylı orta məktəbin XI sinfində oxuyurdu. Cəsur onbirincilərdən biri idi.

Ceyhun da Xocalı faciəsində anası Afilə, qardaşı Azər və Niyaməddinlə Kətik meşəsinə kimi gəlmiş, orada itkin düşmüşdü. Sonrakı taleyi məlum deyil.





## MEHDIYEVA AYSEL MURAD GIZI (5 years old)

born in Khojali, 1987. Five years old. Killed together with her father Murad, sister Gulnara by the Armenians when crossed Nakhchivanik rood in Khojali genocide. Buried in Martyrs Park, Aghdam.

## MEHDİYEVA AYSEL MURAD QIZI (5 yaş)

1987-ci ildə Xocalıda anadan olmuşdur. Beş yaşı vardı.

Xocalı faciəsi zamanı Naxçıvanik yolunu keçərkən atası Murad, bacısı Gülnarə ilə birlikdə erməni quduzları tərəfindən qətlə yetirilmişdir. Məzarı Ağdam şəhərindəki «Şəhidlər Xiyabanı»ndadır.



## ALIYEV ABUHI JAHANGIR OGHLU (14 years old)

born in Stepanakert (Khankendi), 1978. When in the third form he was driven away by Armenians and came to Khojali. Studied at Khojali secondary school №1. In Khojali tragedy his mother Latifa, brother Salim stayed in Khojali. His last fate is unknown.

## ƏLİYEV SƏBUHİ CAHANGİR OĞLU (14 yaş)

1978-ci ildə Stepanakert (Xankəndi) şəhərində anadan olmuşdur. 3-cü sinifdə oxuyarkən oradan ermənilər tərəfindən qovulmuş və ailəsi ilə birlikdə Xocalıya gəlmişdir. Xocalıda 1 saylı orta məktəbdə oxuyurdu.

Xocalı faciəsi zamanı anası Lətifə, qardaşı Səlim ilə Xocalıda qalmışdır. Sonrakı taleyi məlum deyil.



## HÜSEYNOVA NƏSİBƏ HÜSEYN QIZI (10 yaş)

1982-ci ildə Əsgəran rayonunun Daşbulaq kəndində anadan olmuşdur. 1988-ci ildə valideynləri ilə birlikdə qovularaq Xocalıya pənah gətirmişdir.

Xocalıda 2-ci sinifdə oxuyurdu.

1992-ci ilin dəhşətli fevral günündə atası, anası, bacıları və qardaşı ilə birlikdə Xocalının Türklər məhəlləsində qalmışdır. Sonrakı taleyi məlum deyil.

**HUSEYNOVA NASIBA HUSEYN GIZI**

born in the village of Dashbulag, Asgaran region, 1982. In 1982, having been driven away together with her family came to Khojali. Studied in second form, Khojali school. In that terrible February day, 1992 together with her father, mother, sisters and brother she stayed in Turklar quarter of Khojali. Her last fate in unknown.



## HÜMBƏTOVA ANAHİD ELDAR QIZI (13 yaş)

1979-cu ildə Əsgəran rayonunun Şuşakənd kəndində anadan olmuşdu. Anasını erkən itirən zavallı körpə qızcığaz dayısının himayəsində olmuşdur. Qarabağ hadisəsi ilə əlaqədar olaraq Xocalıya pənah gətirmişdilər. Faciə zamanı Naxçıvanik yolundakı donuz fermasının yanında qətlə yetirilmişdir. Məzarı «Uzundərə Şəhidlər qəbiristanlığı»ndadır.

**HUMBATOVA ANAHID ELDAR GIZI**

born in the village of Shushakand, Asgaran region, 1979. Having lost her mother in her early ages, the girl was under guardianship of her uncle. In connection of Garabagh events, they came to Khojali. In the Khojali tragedy was killed near pig-breeding farm on the way to Nakhchivanik. Buried in Uzundere Martyrs Park.





## HÜMBƏTOVA SİMUZƏR CƏLİL QIZI (16 yaş)

1976-cı ildə Xocalı rayonunun Kosalar kəndində anadan olmuşdur. 1983-cü ildə Stepanakertdəki Nizami adına orta məktəbə daxil olmuş, 1988-ci ildə həmin məktəbdə oxuyarkən ermənilər onların evlərini yandırmış, Simuzərgil Xocalıya köçməyə məcbur olmuşlar. Orta təhsilini Xocalıdakı 1 saylı orta məktəbdə davam etdirirdi.

Xocalı soyqırımı zamanı anası Firuzə, qardaşı Muğan, gəlinləri Südabə ilə birlikdə atası Cəlilin gözləri qarşısında vəhşicəsinə qətlə yetirilmişdir.

**HUMBATOVA SIMUZAR JALIL GIZI (16 years old)**

born in the village of Kosalar, Khojali region, 1976. In 1983 she entered the secondary school named after Nizami Ganjavi in Stepanakert. In 1988 while studying at that school, the Armenians burnt their house and Simuzar's family had to move to Khojali. So she continued her education in Khojali secondary school №1. Killed savagely together with her mother Firuza, brother Mughan, sister-in-law Sudaba before eyes of her father Jamil.



**HASANOV
ELGUN NAZIM OGHLU
(14 years old)**

born in Khojali, 1988. Four years old. Crave for Turkik blood Armenians and their defenders which were the blood suckers from 366th russian regiment killed her together with her mother Gulchohra and sister Aygun (1991) savagely near Nakhchivanik. Buried in Giyamadinly village graveyard beside the grave of his relatives Aghjabadi region.

## HƏSƏNOV ELGÜN NAZİM OĞLU (4 yaş)

1988-ci ildə Xocalıda anadan olmuşdur. Dörd yaşı vardı. Türk qanına susamış ermənilər və onların havadarları olan 366-cı rus alayanının qaniçənləri onu anası Gülçöhrə və bacısı Aygün (1991) ilə birlikdə Naxçivanik kəndi ətrafında vəhşicəsinə qətlə yetirmişlər. Məzarı Ağcəbədi rayonunun Qiyamadınlı kənd qəbristanlığında əzizləri ilə qoşadır.



**HASANOVA
AYGUN NAZIM GIZI
(1 years old)**

born in Khojali city, 1991. Killed on night to February 26, 1992 together with her mother Gulchohra, brother Elgun near Nakhchivanik. Buried beside the grave of her brother in Giyamadinly graveyard, Aghjabadi.

## HƏSƏNOVA AYGÜN NAZİM QIZI (1 yaş)

1991-ci ildə Xocalı şəhərində anadan olmuşdur. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə anası Gülçöhrə, qardaşı Elgün ilə birlikdə Naxçivanik ətrafında qətlə yetirilmişdir. Məzarı Ağcabədi rayonunun Qiyamadınlı qəbristanlığında bacısı ilə yanaşıdır.





**MAMMADOV ZAHIR
RAMIZ OGHLU
(17 years old)**

born in Khojali, 1975. Studied in XI form of Khojali secondary school. Zahir studied in daytime and at nights he stood guard over the village. Seven boys of the elevenths were killed in the Khojali tragedy. In that tragedy Zahir stayed in Khojali and took part in "Beshmartaba" battle. In that battle he was struck in the leg. Killed by Armenians in Asgaran when leaving Khojali. Buried in Tarnojud graveyard, Aghdam.

## MƏMMƏDOV ZAHİR RAMİZ OĞLU (17 yaş)

1975-ci ildə Xocalıda anadan olmuşdur. Xocalı orta məktəbinin XI sinfində oxuyurdu. Zahir gündüzlər oxuyur, gecələr kəndin keşiyini çəkirdi. On birincilərdən yeddi nəfər oğlan Xocalı faciəsində həlak olmuşdur. Faciədə Zahir də Xocalıda qalmış, «5 mərtəbə» döyüşündə iştirak etmişdir. Bu döyüşdə ayağından yaralanıb. Xocalını tərk edərkən Əsgəranda ermənilər tərəfindən qətlə yetirilmişdir. Məzarı Ağdam rayonunun Tərnöyüd kənd qəbristanlığındadır.



## MEHDİYEVA GÜLMİRƏ MÜRAD QIZI (3 yaş)

1989-cu ildə Xocalıda anadan olmuşdur. Hələ üç yaşı tamam olmamışdı... 1992-ci il fevralın 26-da Xocalıda baş verən faciədə babası Şəfa, atası Murad, bacısı Ayillə birlikdə Naxçıvanik yolunu keçərkən qətlə yetirilmişdir. Məzarı Bakı şəhərindəki «Şəhidlər Xiyabanı»ndadır.

## MEHDIYEVA GULMIRA MURAD GIZI (3 years old)

born in Khojali, 1989. Was hardly three years old. In Khojali tragedy, on February 26, 1992 was killed together with her grandfather Shafa, father Murad, sister Ayill, while crossing Nakhchivanik rood. Buried in Martyrs Park, Baku.



## VELIYEV AGHASIF ZAHIR OGHLU (6 years old)

born in Khankendi Stepanakert, 1986. Driven away by the Armenians in 1988 and together with his family came to Khojali. Killed by the Armenians near Nakhchivanik in February 1992. No grave found.

## VƏLİYEV AĞASİF ZAKİR OĞLU (6 YAŞ)

1986-cı ildə Xankədində anadan olmuşdur. 1988-ci ildə ermənilər tərəfindən qovulmuş, ailəsi ilə Xocalıya gəlmişdir.

1992-ci ilin fevralında Naxçıvanik ətrafında ermənilər tərəfindən qətlə yetirilmişdir. Məzarı yoxdur.





## QƏMBƏROVA ESMİRA SƏFƏR QIZI (7 YAŞ)

1985-ci ildə Stepanakertdə anadan olmuşdur. Üç yaşında ikən ermənilər evlərini yandırmış, özlərini qətlə yetirmək istəyərkən qaçıb Xocalıya gəlmişlər. Xocalı 1 saylı orta məktəbin 1-ci sinfində oxuyurdu. Top, raket, güllə yağışı altında təhsil alırdı. Sabaha ümidlə baxırdı.

1992-ci il fevralın 26-da Xocalı faciəsində qardaşı Eminlə və zirzəmidə daldalanan 13 nəfər qadın və uşaqlarla birgə qətlə yetirilmişlər. Məzarı yoxdur.

## GAMBAROVA ESMIRA SAFAR GIZI (7 years old)

born in Stepanakert, 1985. When she was three years old, the Armenians burnt their house and they had to escape and come to Khojali as the Armenians tried to kill them. She studied in the first form of Khojali secondary school №1. She studied in gun, rocket, bullet rains. Cherished hope for future. On February 26, 1992 Khojali tragedy she was killed together with her brother, Emin and other 13 women and children who took shelter in the basement. No grave found.



**GULIYEV SHUKUR GARYAGHDI OGHLU (7 years old)**

born in Khojali, 1985. Studied in the first form of Khojali secondary school №1. Was an excellent pupil. In Khojali tragedy he was in the forest near Dahraz village together with his mother Sara, sisters Nurana, Ravana. On February 27 she froze to death in the forest. His dead body was left in the forest.

## QULİYEV ŞÜKÜR QARYAĞDI OĞLU (7 YAŞ)

1985-ci ildə Xocalıda anadan olmuşdur. Xocalı bir saylı orta məktəbinin 1-ci sinfində oxuyurdu. Dərs əlaçısı idi.

Xocalı soyqrımı zamanı anası Sara, bacıları Nuranə, Rəvanə ilə Dəhraz yaxınlığındakı meşədə olmuşdur. 27 fevralda meşədə şaxtadan donub həlak olmuşdur. Cəsədi meşədə qalmışdır.



**GULIYEVA NURANA GARYAGHDI GIZI (11 years old)**

born in Khojali, 1981. Studied in the fourth form of Khojali secondary school №1. Was an excellent pupil. In Khojali tragedy came till the forest near Dahraz village together with her mother Sara, sister Ravana, brother Shukur. Her last fate is unknown.

## QULİYEVA NURANƏ QARYAĞDI QIZI (11 YAŞ)

1981-ci ildə Xocalıda anadan olmuşdur. Xocalıda 2 saylı orta məktəbin 4-cü sinfində oxuyurdu. Dərs əlaçısı idi. Xocalı faciəsində anası Sara, bacısı Rəvanə, qardaşı Şükür ilə birlikdə Dəhraz kəndi yaxınlığındakı meşəyə qədər gəliblər. Sonrakı taleyi məlum deyil.





**GULIYEV SAMIR TALEH OGHLU (2 years old)**

born in Khojali, 1990. In that Khojali tragedy he met Armenians' bullet voices as being on the neck of her mother Rahila when they were crossing Nakhchivanik-Asgaran road. Bullets, which struck his mother, wounded Samir, too. The little child, who lost much blood, died in the arms of Ilham Guliyev. Ilham Guliyev took Samir's dead body to Aghdam. Samir's grave is in Shotlanli village graveyard, Aghdam.

## QULİYEV SAMİR TALEH OĞLU (2 yaş)

1990-cı ildə Xocalıda anadan olmuşdur. Xocalı faciəsində Naxçıvanik-Əsgəran yolunu keçərkən ermənilərin atəş səsini anası Rahilənin kürəyində qarşılamışdır. Anasına dəyən güllələr keçib balaca Samiri ağır yaralamışdır. Çoxlu qan itirən körpə İlham Quliyevin qucağında dünyasını dəyişmişdir. İlham Quliyev Samirin meyidini Ağdama gətirib çıxarmışdır. Məzarı Ağdam rayonunun Şotlanlı kənd qəbiristanlığındadır.



**AZIMOV NATIG ABBASGULU OGHLU (6 years old)**

born in Khojali, 1986. Little Natig was unaware to disaster, which was ahead. In Khojali tragedy he was Killed together with his mother Dilara near Nakhchivanik. His dead body was brought to Aghdam and buried in Martyrs Park of his death after 23 days.

## ƏZİMOV NATİQ ABBASQULU OĞLU

1986-cı ildə Xocalıda anadan olmuşdur. Başına gələcək müsibətlərdən balaca Natiqin xəbəri yox idi.

Xocalı faciəsində anası Dilarə ilə birlikdə Naxçıvanik ətrafında qətlə yetirilmişdir. Cəsədi 23 gündən sonra gətirilib Ağdam «Şəhidlər Xiyabanı»nda dəfn olunmuşdur.



## ƏLİYEV ELÇİN FİRDOVSİ OĞLU (10 yaş)

1982-ci ildə Xocalıda anadan olmuşdur. Xocalı 1 saylı orta məktəbin 5-ci sinfində oxuyurdu. Dərslərindən əla qiymətlər alırdı.

Xocalı faciəsində atası Firdovsi, anası Heyran, qardaşı Elgizlə birlikdə olmuşdur. Naxçıvanik ətrafında üç gün şaxtada ac-susuz qalmışdır. Sonrakı taleyi məlum deyil.

## ALIYEV ELCHIN FIRDOVSI OGHLU (10 years old)

born in Khojali, 1982. Pupil of 5th form of Khojali secondary school №1. Did well in his lessons. In Khojali tragedy he was with his father Firdovsi, mother Heyran, brother Elgiz. Was out of bread and water for three frosty days near Nakhchivanik. His last fate is unknown.



## ALIYEV ELGIZ FIRDOVSI OGHLU (8 years old)

born in Khojali, 1984. Pupil of 3rd form of Khojali secondary school №1. In Khojali tragedy he came till Nakhchivanik together with his mother Heyran, brother Elchin, stayed in the forest for three days. His last fate is unknown.

## ƏLİYEV ELGİZ FİRDOVSİ OĞLU (8 yaş)

1984-cü ildə Xocalıda anadan olmuşdur. Xocalı 1 saylı orta məktəbin 3-cü sinfində oxuyurdu.

Faciədə atası Firdovsi, anası Heyran, qardaşı Elçin ilə birlikdə Naxçıvanik ətrafına kimi gəlmişdi. Üç gün meşədə qalmışdı. Sonrakı taleyi məlum deyil.





## VƏLİYEVA FAZİLƏ FİRƏDDİN QIZI, (6 yaş) VƏLİYEV CAHİD FİRƏDDİN OĞLU (4 yaş)

Fazilə 1987-ci ildə, Cahid isə 1989-cu ildə Füzuli rayonunun Kərimbəyli kəndində anadan olmuşdular.

1993-cü ilin avqust ayında düşmənin uzaq vuran toplarından atılan mərmilər Kərimbəylidə partlayırdı.

Firəddin qoca anasını və ailə üzvlərini traktorun qoşqu lafetinə yığıb onları xilas etməyə çalışır. Traktor kəndin yaxınlığındakı körpüdən keçərkən bir partlayış hər şeyi alt-üst etdi...

## VALIYEVA FAZILA FIRADDIN GIZI (6 years old) VALIYEV ZAHID FIRADDIN OGHLU (4 years old)

born in the village of Karimbayli, Fuzuli region, Fazila - 1987, Zahid - 1989. On August, 1993, enemy's cannon shell splinters gun exploded in Karimbayli village of Fuzuli region. Firaddin decided to save his old mother and members of his family in split-trail carriage of tractor. One explosion changed everything.



## ASLANOVA ELNARA TOFIG GIZI

born in Khojali, 1978. Studied in IX form of Khojali secondary school №1, she was an excellent pupil. In that Khojali tragedy was missed in the forest near Asgaran settlement.

## ASLANOVA ELNARƏ TOFİQ QIZI (14 yaş)

1978-ci ildə Xocalıda anadan olmuşdur. Xocalı 1 saylı orta məktəbin IX sinfində oxuyurdu. Dərs əlaçısı idi.

1992-ci il fevralın 26-da Ermənilərin törətdikləri faciədə Əsgəran qəsəbəsi qarşısındakı meşədə itkin düşmüşdür. Sonrakı taleyi məlum deyil.



1976-cı ildə Zəngilan rayonunun Saralı-Xəştab kəndində anadan olub. 1992-ci il oktyabrın 1-də kəndin yaxınlığındakı örüşdə mal otararkən onu girov götürmək istəmişlər. Alçaq düşmənlər Vüqarı girov apara bilməyəcəklərini görüb, onu avtomatla qətlə yetirmişlər.

**BABAYEV VUGAR BABA OGHLU (16 years old)**

born in the village of Sarali-Khashtab, Zangilan region, 1976. On October 1, 1992 when he was pasturing cattle near the village the Armenians tried to take him hostage. Seeing their failure, damned enemies shot at the boy and killed him.

**GAMBAROV EMIN SAFAR OGHLU (6 years old)**

born in Stepanakert, 1986. When he was two years old, the Armenians burnt out their house. As other Azerbaijanis the Gambarovs became refugees. They came to Khojali. His wish to go to school did not come true, Armenian bullet met him. His dead body is not found. No grave.

## QƏMBƏROV EMİN SƏFƏR OĞLU (6 yaş)



1986-cı ildə Stepanakertdə anadan olmuşdur. Hələ iki yaşında ikən ermənilər evlərini yandırmış, başqa azərbaycanlılar kimi, Emingil də didərgin düşmüşdülər. Onlar Xocalıya pənah gətirmişdilər. Məktəbə getmək ona qismət olmadı, erməni gülləsinə tuş gəldi. Cəsədini əldə etmək mümkün olmadığından məzarı yoxdur.





## MİRZƏYEV NƏSİMİ CƏLİL OĞLU (17 yaş)

1975-ci ildə Füzuli rayonunun Qarğabazar kəndində anadan olub. Ailənin sonbeşiyi idi. Onuncu sinifdə oxuyurdu.

1992-ci ilin aprel günlərinin birində dayısı oğlu ilə Dədəli kəndinə gələn Nəsimi qəfil atılan mərmilərin qurbanı oldu. Başına dəyən qəlpələr onu ömrünün yeniyetmə çağında qanına bələdi.

Ana laylası ilə böyüyən Nəsimi ana ağısıyla torpağa qoyuldu.

**MIRZAYEV NASIMI JALIL OGHLU (17 years old)**

born in the village of Garghabazar, Fuzuli region, 1975. The last child of the family, pupil of X form. On one April day, 1992, Nasimi who came guest with his uncle'son to Dadali village became victim of cannon shell-splinters. Shells which struck him in the head, cut his life off. Brought up in lullaby, buried in lullaby.

**MUSTAFAYEV HAFIZ ALI OGHLU (15 years old)**

born in Shusha, April 2, 1977. Killed in May 8, 1992. Studied in boarding school №1. Took part in defence of the city. Killed in battles which took place in the territory of Shusha Jail House №1, May 8, 1992. Buried in Martys Park, Baku.

## MUSTAFAYEV HAFİZ ƏLİ OĞLU (15 yaş)



1977-ci il aprelin 2-də Şuşada doğulmuş, 1992-ci il mayın 8-də orada həlak olmuşdur.

Şuşadakı 1 nömrəli internat məktəbində oxumuşdu. Uşaq olmasına baxmayaraq, şəhərin müdafiəsində iştirak edirdi.

1992-ci il mayın 8-də Şuşa 1 saylı həbs evi rayonunda gedən vuruşma zamanı həlak olmuşdur.



## ABBASOV EYVAZ KAMRAN OGHLU (7 years old)

born in Karkijahan settlement, 1983. Killed in Karkijahan, October 2, 1990. Eyvaz was an excellent pupil. In October 2, 1990 after classes together with his brother Avaz they went to pasture cattle near Karkijahan. He was killed as a result of explosion of grenade thrown by Armenians. His brother Avaz was badly wounded. Buried in Karkijan graveyard.

## ABBASOV EYVAZ KAMRAN OĞLU (7 yaş)

1983-cü ildə Kərkicahan qəsəbəsində anadan olmuş, 1990-cı il oktyabrın 2-də Kərkicahanda qətlə yetirilmişdir.

Eyvaz dərs əlaçısı idi. 1990-cı il oktyabrın 2-də dərsdən sonra qardaşı Əvəzlə Kərkicahan qəsəbəsi yaxınlığındakı otlağa qoyun otarmağa getmiş, erməni quldurlarının atdığı qumbaranın partlaması nəticəsində həlak olmuş, qardaşı Əvəz isə ağır yaralanmışdı. Kərkicahan qəbiristanlığında dəfn olunmuşdur.



## NAJAFOV PARVIZ GABIL OGHLU (13 years old)

born in the village of Garagol, Zangilan region, March 29, 1979. On November 5, 1992, cannon shell-splinter gun fell on their house and killed his father Gabil, and badly wounded Parviz was taken to hospital in the region. But in vain. Medical aid couldn't help him and Avaz died in hospital.

## NƏCƏFOV PƏRVİZ QABİL OĞLU (13 yaş)

29 mart 1979-cu ildə Zəngilan rayonunun Qaragöl kəndində anadan olub. 5 noyabr 1992-ci ildə erməni təcavüzkarlarının atdığı top mərmisi onların evinə düşmüş, atası Qabil ölmüş, Pərvizin özü isə ağır zədə alaraq rayon xəstəxanasına gətirilmişdir. Tibbi yardım onu həyata qaytara bilməmiş və xəstəxanada gözünü əbədi yummuşdur.





## MUSAYEV ELMADDIN ISAK OGHLU (13 years old)

born in Lachin, January 1, 1980. Studied in Lachin boarding school, he was an excellent pupil. Was struck in the head as a result of "Grad" shell thrown by Armenian dashnaks on May 9, 1992. The operation made, could not return him to life.

## MUSAYEV ELMƏDDİN İSAK OĞLU (13 yaş)

1980-cı il yanvarın 1-də Laçın şəhərində anadan olmuşdu. Laçındakı internat məktəbində oxuyurdu. Dərs əlaçısı idi.

9 may 1992-ci il tarixdə erməni daşnaklarının Laçına atdıqları qrad mərmilərindən başından ağır zərbə almışdır. 1993-cü il 13 iyunda cərahiyyə əməliyyatından sağ çıxmamışdır.

## ALIYEV SAMIR GADIR OGHLU (16 years old)

born in the village of Garajalli, Jabrayil region, June 9, 1977. Since the beginning of events of 1988 he took part in battles under name of "Tigana". He was 11 years old, then. Died a hero's death in August 15, 1993.

## ALIYEV SAMİR QƏDİR OĞLU (16 yaş)



1977-ci il iyun ayının 9-da Cəbrayıl rayonunun Qaracallı kəndində anadan olmuşdu. 1988-ci il hadisələri başlayan gündən «Tiqana» adı ilə döyüş zonalarında vətənpərvərlərlə çiyin-çiyinə iştirak edib. O vaxt «Tiqana»nın 11 yaşı var idi. 15 avqust 1993-cü ildə döyüş əməliyyatları zamanı həlak olub.



MAMMADOV MUBARIZ FARMAYIL OGHLU

born in the village of Boyuk Marjanli, Jabrayil region, 1980. In 1993, when our lands were occupied by Armenians, trying to escape, Mubariz met shell in the bank of the river Araz.

**MƏMMƏDOV MÜBARİZ FƏRMAYIL OĞLU (13 yaş)**

1980-cı ildə Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndində anadan olmuşdu. 1993-cü ildə torpaqlarımız işğal edilən zaman xilas olmağa çalışan Mübariz Araz çayının sahilində düşmən mərmilərinə tuş gəlib.



MAMMADOV SEYIDALI ISMAYIL OGHLU (11 years old)

born in the village of Boyuk Marjanli, Jabrayil region, November 12, 1982. Killed being struck of shell in the bank of the river Araz, trying to cross it in Armenians' aggression, on October 24, 1993.

**MƏMMƏDOV SEYİDƏLİ İSMAYIL OĞLU (11 yaş)**

1982-ci il noyabrın 12-də Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndində anadan olmuşdu. 1993-cü il oktyabrın 24-də Araz çayını keçərkən düşmən mərmisindən həlak olmuşdur.





SEYIDALIYEV FAIG FAZIL OGHLU (7 years old)

born in the village of Boyuk Marjanli, Jabrayil region, September 27, 1986, Killed of the shell in the bank of the river Araz, trying to cross it on October 24, 1993.

**SEYİDƏLİYEV FAİQ FAZİL OĞLU (7 yaş)**

1986-cı il sentyabr ayının 27-də Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndində anadan olmuşdu. 1993-cü il oktyabrın 24-də ermənilərə əsir düşməmək üçün Araz çayını keçərkən düşmən mərmisindən həlak olmuşdur.

KHANALIYEV PUNHAN BAYISH OGHLU (10 years old)

born in Jabrail region, 1982. On July 29, 1992 the shell thrown by enemies put an end to life of little Punhan.

**XANƏLİYEV PÜNHAN BƏYİŞ OĞLU (10 yaş)**



1982-ci ildə Cəbrayıl rayonunda anadan olmuşdu. 1992-ci il iyulun 29-da düşmənlərin atdıqları mərminin qəlpələri balaca Pünhanın həyatına son qoymuşdur.



**HAJIYEV VUGAR ALI OGHLU (16 years old)**

born in the village of Sirik, Jabrayil region, 1976. Met enemy's bullet while carrying cartridges for our soldiers in the battle of 1992. Vugar is the first senior-aged martyr of Jabrayil.

## HACIYEV VÜQAR ƏLİ OĞLU (16 yaş)

1976-cı ildə Cəbrayıl rayonunun Sirik kəndində anadan olmuşdur. 1992-ci ildə döyüş əməliyyatları zamanı əsgərlərimizə patron daşıyarkən düşmən gülləsinə tuş gəlib. Cəbrayılın ilk yeniyetmə şəhididir.

**HUSEYNOV ISAK MUSA OGHLU (11 years old)**

born in the village Khalafli, Jabrail region, 1982. Died of shell thrown by Armenians when together with his father was taking the cattle which belonged to collective farm to a safer place. Isak's brother Yusif also was martyr in one of the battles of 1993.

## HÜSEYNOV İSAK MUSA OĞLU (11 YAŞ)



1982-ci ildə Cəbrayıl rayonunun Xələfli kəndində anadan olmuşdu. 1993-cü ildə o, atası ilə birlikdə kolxozun qaramalını təhlükəsiz yerə apararkən düşmən mərmisindən həlak olmuşdur. İsakın qardaşı Yusif də 1993-cü ildə döyüşlərin birində şəhid olub.





## HÜSEYNOV ƏBÜLFƏT MEHMAN OĞLU (15 yaş)

**HUSEYNOV ABULFAZ MAHMUD OGHLU (15 years old)**

born in the village of Garadaghli, Khojavand region, 1977. Died a hero's death in the battle, when the Armenian aggressors attacked the village in 1992. Was a schoolboy.

1977-ci ildə Xocavənd rayonunun Qaradağlı kəndində anadan olub. 1992-ci ildə erməni quldurları kəndə hücum edən zaman döyüşdə qəhrəmancasına şəhid olub. Məktəbli idi.

**HUSEYNOV FADAIL ZULFUGAR OGHLU (17 years old)**

born in the village of Garadaghli, Khojavand region, 1975. In 1982 entered the Garadaghli village secondary school. Took active part in every measure at school. Was an excellent pupil. Not finishing his studies at school, on February 17, 1992 when the village was occupied by the Armenians, fighting against enemy died a martyr's death.

## HÜSEYNOV FƏDAİL ZÜLFÜQAR OĞLU (17 yaş)



1975-ci ildə Xocavənd rayonunun Qaradağlı kəndində anadan olmuşdur. 1982-ci ildə Qaradağlı kənd orta məktəbinə getmişdir. Məktəbin hər bir işində fəal iştirak etmişdir. Əlaçı olmuşdur. 1992-ci il fevral ayının 17-də kənd erməni quldurları tərəfindən işğal olunan zaman, düşmənlərə qarşı qəhrəmanlıqla vuruşaraq şəhid olmuşdur.



## DADAŞOV UĞUR ELDAR OĞLU (15 yaş)

1977-ci ildə Xocavənd rayonunun Qaradağlı kəndində anadan olmuşdur. 1983-cü ildə səkkizinci sinfi başa vurmuşdur. 1992-ci il fevral ayının 17-də Qaradağlı kəndinin müdafiəsi zamanı kəndin özünümüdafiə dəstəsinin üzvü kimi işğalçılara qarşı mətinliklə döyüşmüş və şəhid olmuşdur. Atası da özü kimi şəhiddir.

**DADASHOV UGHUR ELDAR OGHLU (15 years old)**

born in the village of Garadaghli, Khojavand region, 1977. Died a martyr death as member of selsf-defence group of the village on February 17, 1992. His father is a martyr as he is.

**ALIYEV HALIG MAHARRAM OGHLU (17 years old)**

born in the family of collective-farmer, Garadaghli village, Khojavand region, 1975. Entered I form of Garadaghli secondary school in 1981 but couldn't continue his studies because of the war. Killed savagely by the Armenians in the defence of the village on February 17, 1992.

## ƏLİYEV XALİQ MƏHƏRRƏM OĞLU (17 yaş )



1975-ci ildə Xocavənd rayonunun Qaradağlı kəndində kolxozçu ailəsində anadan olmuşdur. 1981-ci ildə Qaradağlı kənd orta məktəbin I sinfinə daxil olmuş, namərd ermənilərin amansız müharibəsi nəticəsində təhsilini davam etdirə bilməmişdir. 1992-ci il 17 fevral tarixində kəndin müdafiəsi zamanı ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirilmişdir.





## VƏLİYEV ƏLƏMŞAD ELDAR OĞLU (17 yaş)

1974-cü ildə Xocavənd rayonunun Tuğ kəndində fəhlə ailəsində anadan olmuşdur. Qarabağ hadisələri başlayanda Ələmşad 6-cı sinifdə oxuyurdu. Məktəbli olmasına baxmayaraq, torpaqlarımıza göz dikən yağı düşmənlərə qarşı həmişə amansız olmuşdu. Ermənilər dəfələrlə Tuğ kəndinə hücum edən zaman Ələmşad kəndin müdafiəçiləri arasında olmuşdu. Ata-anası nə qədər çalışdılar ki, uşaq olduğuna görə bu yoldan çəkinsin, ancaq o «ermənilər kimdir ki, bizim kəndə hücum etsinlər» deyirdi. Tale Ələmşadın orta məktəbi qurtarmasına imkan vermədi. 1 may 1991-ci il tarixdə Tuğ kəndi uğrunda döyüşlərdə erməni gülləsi Ələmşadı öz məktəb yoldaşlarından ayırdı, o, qəhrəmancasına həlak oldu.

**VALIYEV ALAMSHAD ELDAR OGHLU (17 years old)**

born in the family of worker, Tugh village, Khojavand region, 1974. When Garabagh events began, Alamshad was a pupil of 6th form. Though a child, he was always merciless to enemies who were in desire of our lands. Each time when the Armenians attacked the village, Alamshad was among fighters. Though his parents tried to prevent him from this, he used to say; how do these Armenians dare to attack our village. Alamshad could not finish school. On May 01, 1991 in the battle for Tugh village, he was killed by bullet shell and separated him from his classmates. He died a hero's death.



HUSEYNOV
IBISH HABIB OGHLU
(14 years old)

born in the village of Garadaghli of Khojavand region, 1978. Died a hero's death in the battle when the Armenian barbarians attacked the village. His father, mother, brother died a martyr's death. In (1992). the was a schoolboy.

**HÜSEYNOV İBİŞ HƏBİB OĞLU (14 yaş)**

1978-ci ildə Xocavənd rayonunun Qaradağlı kəndində dünyaya gəlmişdir. 17 fevral 1992-ci ildə erməni quldur birləşmələri kəndə hücum edən zaman döyüşdə qəhrəmancasına həlak olmuşdur. Atası, anası, qardaşı şəhid olub (1992-ci ildə). Məktəbli idi.

NAGHIYEV
AFTANDIL
KHANLAR OGHLU
(15 years old)

born in the village of Garadaghli, Khojavand region, 1977. Enlisted member of self-defence group when ARUG (Autonomous Republic of Upper Garabagh) events began. In 17.02.1992 died a martyr's death in the battle for Garadaghli village. Was a schoolboy.



**NAĞIYEV AFTANDİL XANLAR OĞLU (15 yaş)**

1977-ci ildə Xocavənd rayonunun Qaradağlı kəndində anadan olmuşdur. DQMV hadisələri başlayanda o da kəndin özünümüdafiə dəstəsinə üzv yazılmış və 17.02.1992-ci ildə Qaradağlı kəndi uğrunda gedən döyüşlərdə şəhid olmuşdur. Məktəbli idi.





HUSEYNOV
NIFTALI BAKIR
OGHLU
(14 years old)

born in the village of Garadaghli, Khojavand region, 1978. Died a hero's death in the battle when the Armenian barbarians attacked the village in 1992. Was a pupil. His mother and sister were killed by the Armenians.

**HÜSEYNOV NİFTALI BAKİR OĞLU (14 yaş)**

1978-ci ildə Xocavənd rayonunun Qaradağlı kəndində anadan olub. 1992-ci ildə erməni quldur birləşmələri Qaradağlı kəndinə hücum edən zaman döyüşdə qəhrəmancasına şəhid olub. Məktəbli idi. Anası, bacısı ermənilər tərəfindən qətlə yetirilib.



BABAYEV
SABUHI SAHIB
OGHLU (13 years old)

born in Khojavand village of Khojavand region he was 1978. Pupil of 7th form. On October 28, 1991 when the Armenians fired Khojavand village from all directions Sabuhi died of grenade cup discharges.

**BABAYEV SƏBUHİ SAHİB OĞLU (13 yaş)**

1978-ci ildə Xocavənd rayonunun Xocavənd kəndində anadan olmuşdu. VII sinifdə oxuyurdu. 1991-ci il oktyabr 28-də ermənilər Xocavənd kəndini müxtəlif növ silahlardan güclü atəşə tutarkən qranatamyotla öldürülüb.



## SÜLEYMANOV TEYYUB FƏRRUX OĞLU (13 yaş)

1976-cı ildə Xocavənd rayonunun Tuğ kəndində anadan olmuşdur. Qarabağ hadisələri başlayanda Teyyub 7-ci sinifdə oxuyurdu. Məktəb yaşlı olmasına baxmayaraq, torpaq məhəbbəti onun da qəlbində bir iz buraxmışdır. Dəfələrlə ermənilər «Miatsum» plakatını Tuğ kəndinin ətrafındakı hündür dağlardan asdıqca Teyyub onu həmin axşamı darmadağın edirdi. Bir dəfə Nəsimi rayonundan Tuğ kəndinə gələn yardım maşınları karvanının qabağını erməni quldurları kəsən zaman, Teyyub onları daş-qalağa basaraq həmin yoldan uzaqlaşdırmışdır. Ermənilərə qarşı amansız olan Teyyub 17 noyabr 1989-cu ildə oxuduğu məktəbin həyətində ermənilər tərəfindən bıçaqla öldürülmüşdür.

**SULEYMANOV TEYYUB FARRUKH OGHLU**

born in the village of Tugh, Khojavand region, 1976. When Garabagh events began, Teyyub was a pupil of 7th form. Thougha school-aged, he loved his native land very much.

Each time when the Armenians hang the placard written "Miatsum" on it, over the high mountains around the village, Teyyub used to take and cut them into pieces. Even once when the Armenian barbarians partitioned off the way of the caravan of assistance cars which were appointed for Tugh village, Teyyub made the Armenians to free the way flinging stones over them. Killed of knife-wound in the schoolyard caused by the Armenians on November 17, 1989.





## BALAKİŞİYEV MƏHƏMMƏDƏLİ QƏHRƏMAN OĞLU (10 yaş)

**BALAKISHIYEV MAHAMMADALI GAHRAMAN OGHLU (10 years old)**

born in the family of collective farmer, Gunashli village, Khoajavand region, 1978. Killed by the Armenians when returned home from school on October 20, 1988. Later his sister became a martyr, too.

1978-ci ildə Xocavənd rayonunun Günəşli kəndində kolxozçu ailəsində anadan olmuşdur. 1988-ci il oktyabr ayının 20-də məktəbdən evə gələrkən erməni quldurları tərəfindən qətlə yetirilmişdir. Sonradan bacısı da şəhid olmuşdur.



**GARAYEV INTIGAM YAGUB OGHLU (17 years old)**

born in the village of Hakhullu, Khojavand region, 1976. Died a martyr's death on August 23, 1993 as a result of Armenian aggression in Kurmahmudlu village, Fuzuli region

## QARAYEV İNTİQAM YAQUB OĞLU (17 yaş)

1976-cı ildə Xocavənd rayonunun Haxullu kəndində anadan olmuşdur. 23 avqust 1993-cü il tarixdə erməni təcavüzü nəticəsində Füzuli rayonunun Kürmahmudlu kəndində şəhid olmuşdur.



## ABULOV ƏVƏZ ƏVƏZ OĞLU (11 YAŞ)

**ABULOV AVAZ AVAZ OGHLU (11 years old)**

born in the village of Basharat, Gubadli region, 1982. Killed of cannon shell-splinter thrown by the Armenians on August 17, 1993.

1982-ci ildə Qubadlı rayonunun Başarat kəndində anadan olmuşdur. 1993-cü il avqust ayının 17-də ermənilərin atdıqları top mərmisinin qəlpələrindən həlak olmuşdur.

**GAFAROV IKHTIYAR MASHALLAH OGHLU (2 years old)**

born in the village of Ashagi Mollu, Gubadli region, 1991. On August 31, 1993 when Gubadli was occupied by Armenian beasts, they killed savagely little Ikhtiyar and his 100 year old grandmother - Chichak Hasangulu gizi, then they threw both of them into the river.



## QAFAROV İXTİYAR MAŞALLAH OĞLU (2 yaş)

1991-ci ildə Qubadlı rayonunun Aşağı Mollu kəndində anadan olmuşdur. 1993-cü il avqust ayının 31-də Qubadlı işğal olunan zaman erməni cəlladları körpə İxtiyarı və onun 100 yaşlı nənəsini - Çiçək Həsənqulu qızını vəhşiliklə qətlə yetirmiş və hər ikisini çaya tullamışlar.





**ALAKBAROVA TAZAGUL TAPDIG GIZI (8 years old)**

born in the village of Novlu, Gubadli region, January 29, 1984. In August 8, 1992 she was badly wounded of the cannon shell-splinter and not-reaching the hospital closed her eyes forever.

## ƏLƏKBƏROVA TƏZƏGÜL TAPDIQ QIZI (8 yaş)

1984-cü il yanvarın 29-da Qubadlı rayonunun Novlu kəndində anadan olmuşdu. 1992-ci il avqustun 8-də erməni quldurlarının atdığı mərmilərin qəlpələrindən ağır yaralanmış və xəstəxanaya çatanadək gözlərini yummuşdur.

**DUNYAMALIYEV PARVIZ AGSHIN OGHLU (6 month child)**

born in the village of Ashagi Mollu, Gubadli region, March 3, 1993. Cannon shell-splinters thrown by enemy on August 30, 1993 put an end to the life of this little child. Only 6 months passed from his birth when cannon shell-splinters put end to this little child's life. On the day of 6th month of his life he was killed.



## DÜNYAMALIYEV PƏRVİZ AQŞİN OĞLU (6 aylıq körpə uşaq)

1993-cü il martın 3-də Qubadlı rayonunun Yuxarı Mollu kəndində anadan olmuşdu. 1993-cü il martın 30-da namərd düşmənin atdığı top mərmilərinin qəlpələri bu məsum körpənin lap qısa ömrünə nöqtə qoydu. Şəhid olan günü 6 ay idi ki, işıqlı dünyaya gəlmişdi.



## YAGUBOVA BANOVSHA EYVAZ GIZI (3 years old)

born in the village of Charali, Gubadli region, 1989. On August 8, 1992 her life was cut off by cannon shell-splinter gun thrown by the Armenians. She was under age three of little Banovsha's father Eyvaz and aunt Aynur also died a martyr death.

## YAQUBOVA BƏNÖVŞƏ EYVAZ QIZI (3 yaş)

1989-cu ildə Qubadlı rayonunun Çərəli kəndində anadan olmuşdu. 1992-ci il avqustun 8-də ermənilərin atdığı mərmi qəlpələri onun işıqlı həyatını puç etdi. Hələ üç yaşı tamam olmamışdı. Körpə Bənövşənin atası Eyvaz və bibisi Aynur da şəhid olmuşlar.



## MAHMUDOV SAMIR NADIR OGHLU (9 years old)

born in the village of Kojahan, Gubadli region, 1983. On December 14, 1992, the village was fired from "Grad". One of those "Grad" shells fell on their yard and killed little Samir.

## MAHMUDOV SAMİR NADİR OĞLU (9 yaş)

1983-cü ildə Qubadlı rayonunun Xocahan kəndində dünyaya göz açmışdı. Orta məktəbin IV sinfində oxuyurdu. 1992-ci il dekabrın 14-də kəndləri güclü qrad atəşinə tutulmuş və həmin qradlardan biri onların həyətlərinə düşərək balaca Samiri öldürmüşdür.





## GULIYEV ZAMIG MEHMAN OGHLU (11 years old)

born in Yukhari Yaghlivend village of Fuzuli region, 1981. He would have studied in V form... if his life was not cut in half way. On August 15, 1992 one of the shells thrown from aircrafts burst near the place where the four brothers Teyyub, Vasif, Zamig and Agil were playing. All of the brothers got wounded. Vasif and Zamig died before they could reach the hospital, but it was possible to return Agil and Teyyub, to life, though they carry shrapnels in their bodyes.

That day 50 villagers were wounded and 4 villagers died of the shell-splinters thrown on to the village.

When that event happened, Zamig's father was in battles. On his return home he found only two of his sons alive.

## QULİYEV ZAMİQ MEHMAN OĞLU (11 yaş)

1981-ci ildə Füzuli rayonunun Yuxarı Yağlıvənd kəndində anadan olmuşdu. V sinifdə oxuyacaqdı. Lakin 1992-ci il avqust ayının 15-də təyyarələrdən atılan mərmilər Vasif, Zamiq, Aqil və Teyyub qardaşlarını öz həyətlərində haqladı. Onların dördü də ağır yaralandılar. Zamiqlə Vasif xəstəxanaya çatmamış keçindilər. Aqil və Teyyubu həyata qaytarmaq mümkün olsa da, onlar indi də bədənlərində qəlpələr gəzdirirlər.

Atası Mehman müəllim döyüşdə idi. O evə dönəndə uşaqlarının ikisi də həlak olmuşdu. Onun həyətində mərmilər 52 çala açmışdı. Həmin gün 50 nəfər kənd sakini yaralandı, 4 nəfər isə öldü. Ölənlərin üçü məktəbli idi.



## QULİYEV VASİF MEHMAN OĞLU (13 yaş)

1979-cu ildə Füzuli rayonunun Yuxarı Yağlıvənd kəndində anadan olmuşdu. Orta məktəbin VI sinfini bitirmişdi. Yeni dərs ilində VII sinfində oxuyacaqdı, lakin bu Vasifə qismət olmadı.

1992-ci il avqustun 15-də erməni təyyarələrindən atılan mərmilərdən biri onların həyətinə düşür. Dörd qardaş - Vasif, Zamiq, Aqil, Teyyub ağır yaralanırlar. Qardaşlardan ikisi - Vasif ilə Zamiq xəstəxanaya çatmamış dünyasını dəyşir. O biri iki qardaş isə müalicə olunsa da, indi də bədənlərində mərmi qəlpələri gəzdirirlər.

Vasifin məzarı doğma kəndində qardaşı Zamiqlə yan-yanadır.

## GULIYEV VASIF MEHMAN OGHLU (13 years old)

born in Yukhari Yaghlivend village of Fuzuli region, 1979.

On August 15, 1992 one of the shells thrown from aircrafts burst in their yard. At that time, four brothers, Vasif, Zamig, Agil and Teyyub were in the yard. The thrown shell wounded them. Vasif and Zamig died before they could reach the hospital, but it was possible to return Agil and Teyyub, to life. Now, they are carrying several shell-splinters in their bodies.

Vasif was moved to VII form. He lived with great wishes. But his wishes could not come true.





## MƏMMƏDOV ELÇİN BƏHRAM OĞLU (2 yaş), MƏMMƏDOV EMİN BƏHRAM OĞLU (5 aylıq)

Elçin 1986-cı ildə, Emin isə 1988-ci ildə Ermənistanın Kalinin rayonunda anadan olublar. 1988-ci ildə anaları Yasəmən Gülməmməd qızı (1962) və ataları Bəhram ilə birlikdə ermənilər tərəfindən vəhşicəsinə öldürülmüşlər.

## MAMMADOV ELCHIN BAHRAM OGHLU, (2 years old) MAMMADOV EMIN BAHRAM OGLU (5 month)

Elchin was born in 1986 and Emin in 1988 in Kalinin region of Armenian Republic. The Armenians savagely killed them Yasaman Gulmammad gizi (1962) together with father Bahram.



## İSGƏNDƏROV AKİM MEHRƏLİ OĞLU (17 yaş)

1971-ci ildə Ermənistanda doğulmuşdur. 1988-ci ildə Atası Mehrəli (1938), anası Xanım (1945) ilə birlikdə Ermənistanda milliyyətcə erməni olan idman müəllimi Qaqik və onun dostları tərəfindən vəhşicəsinə qətlə yetirilmişdir. Qardaşı Sahib hərbi xidmətdə bu xəbəri eşidən kimi sarsılıb.

## ISKANDAROV AKIM MEHRALI OGLU (17 years old)

born on 1971 in Armenia. His father Mehrali (1938) and mother Khanum (1945) were both killed in Armenia by the teacher on physician training, Qarik and his friends, Armenian by nationality. Hearing this news, Akim's brother Sahib who was in military service went mad.



## BEŞ YAŞLI UŞAQ

1988-ci ilin 30 noyabrında Ermənistanın Ararat rayonunun Xəlisə kəndində 5 yaşlı azərbaycanlı uşağını erməni daşnakı qaldırıb yuxarı, sonra başı üstündən yerə çırpıb. Uşaq o dəqiqə ölüb. Hadisə Lətifə Başirovanın gözləri qarşısında baş verib.

## FIVE YEAR CHILD

November 30, 1988, in Khalisa village, Ararat region of Armenia an Armenian dashnak killed a five-year Azerbaijani child raising and then throwing the child down from above his head. Latifa Bashirova is the witness of this event.

## FIVE CHILDREN MORE

During dislocation of Azerbaijanis from Azerbaijan by force in 1988, the Armenians in Stepanovan city killed Jalal Aliyev's two children and cousin. Besides, in nearest village they killed three Azerbaijani children.



## DAHA BEŞ UŞAQ

1988-ci ildə Ermənistandan azərbaycanlıları zorla köçürmə zamanı Stepanovan şəhərində ermənilər Əliyev Cəlal Məmməd oğlunun əmisi oğlunu və iki uşağını, bundan əlavə yaxın kənddə üç azərbaycanlını qətlə yetiriblər.





## ABDULLAYEVA MAYA SƏRHƏD QIZI

1986-cı ildə Xocalı rayonunu Kosalar kəndində anadan olmuşdur. 1991-ci il avqusutun 23-də validenləri ilə birilkdə Şuşadan gələrkən Kosalar-Cəmilli yolunda ermənilər tərəfindən qətlə yetirilmişdir. Anası Gülər isə aldığı yaradan şikəst olmuşdur.

## ABDULLAYEVA MAYA SARHAD GIZI (5 years old)

born in Kosalar village of Khojali region, 1986. Killed together with her parents when returning from Shusha on the way of Kosalar-Jamilly. And her mother became invalid from the wound that she got there.

## SULEYMANOV SADIG BALOGHLAN OGHLU (10 years old)

Born on 1982 in Rezdere village of Zangilan region. On August 22, 1992 killed of the cannon ball of qrad thrown by Armenians. His father Baloglan died a marty's death in one of the battles.



## SÜLEYMANOV SADİQ BALOĞLAN OĞLU (10 yaş)

1982-ci ildə Zəngilan rayonunun Rəzdərə kəndində anadan olmuşdur. 1992-ci il avqustun 22-də ermənilərin atdığı qrad mərmisindən həlak olmuşdur. Atası Baloğlan da döyüşdə şəhid olub.



## MƏMMƏDOVA ƏSMAYƏ FAMİL QIZI (13 yaş)

**MAMMADOVA ASMAYA FAMIL GIZI (13 years old)**

Born in 1979 in Chay Rasullu village of Gadabey region. On 3rd of August 1992 as a result of cannon ball thrown by the Armenians their house was ruined and she died together with her mother Mammadova Sinakhan Jabbar gizi (1934 of birth) and brother Allahverdi (1965).

1979-cu ildə Gədəbəy rayonunun Çay Rəsullu kəndində anadan olmuşdur.

3 avqust 1992-ci ildə ermənilər tərəfindən atılmış top mərmisi nəticəsində evləri dağılmış və anası Məmmədova Sinaxan Cabbar qızı (1934-cü il təvəllüdlü) və qardaşı Allahverdi (1965) ilə birlikdə həlak olmuşdur.



## QASIMOV ÇİLİNGİR MAYIL OĞLU (12 yaş)

**GASIMOV CHILINGIR MAYIL OGHLU (12 years old)**

Born in 1981 in Garaveller village, Hajilar village soviet of Gadabey region. He was a schoolboy. On 17 th of October 1993 together with his father and several other servicemen he went to the forest near Hajilar village to gather firewood (his father was also a serviceman). While gathering firewood, his father gave his gun to Chilingar. Being busy with gathering firewood, they found themselves far from Chilingar. At that time three armed Armenian robbers surrounding little Chilingar came forward to take him a prisoner. Understanding their intention little Chilingar killed one of them by firing from cannon ball. Having executed inexperienced Chilingar the other two robbers ran away from the place of the event. To the voice of skirmishing Chilingar's father and the other servicemen came to the place of the event and found there one Armenian killed and Chilingar, having been executed.

1981-ci ildə Gədəbəy rayonunun Hacılar sovetliyinin Qaravəllər kəndində anadan olub. Məktəbli idi. 1993-cü il oktyabr ayının 17-də atası və bir neçə hərbçi ilə birlikdə traktorla Hacılar kənd meşəsinə odun yığmağa gediblər. (onun atası da hərbçi idi). Atası odun yığarkən avtomat silahını Çilingurə saxlamaq üçün veribmiş. Onlar odun yığa-yığa Çilingurdən xeyli aralanıblar. Bu zaman 3 nəfər erməni silahlı quldurु balaca Çilinguri mühasirəyə alıb əsir götürmək istəyiblər. O ermənilərin niyyətini başa düşüb avtomatdan atəş açaraq onlardan birini məhv edib. Digər iki nəfər isə təcrübəsiz Çilinguri qətlə yetirərək hadisə yerindən uzaqlaşıblar. Atışmadan xəbər tutan atası və digər hərbçilər hadisə yerinə gələndə orda bir nəfər erməninin öldürüldüyünü və Çilingurin də qətlə yetirildiyini görüblər.



## QAFAROV SAMİR SAHİB OĞLU (14 yaş)

**GAFAROV SAMIR SAHIB OGHLU (14 years old)**

Born in 1978 in Zamanli village of Gadabey region. Studied in IX class. In 14 th of April 1992, cannon ball thrown by the Armenians fell on Samir's house. The house was ruined and Samir died together with his sister Aytekin, brother Yashar, mother Basti Imamverdi gizi (1947 of birth) and aunt Gafarova Opheliya Mirzaman gizi (1951 of birth).

1978-ci ildə Gədəbəy rayonunun Zamanlı kəndində anadan olmuşdu. IX sinifdə oxuyurdu.

1992-ci il aprel ayının 14-də ermənilərin atdıqları top mərmisi Samirgilin evinin üstünə düşərək evi dağıtmış bacısı Aytəkin, qardaşı Yaşar, anası Bəsti İmamverdi qızı (1947-ci il təvəllüdlü) və bibisi Qafarova Ofelya Mirzaman qızı (1951-ci il təvəllüdlü) ilə birlikdə həlak olmuşdur.



## QAFAROVA AYTƏKİN SAHİB QIZI (13 yaş)

**GAFAROVA AYTEKIN SAHIB GIZI (13 years old)**

Born on 1979 in Zamanli village of Gadabey region. Studied in VIII class. On 14 th of April 1992 as a result of cannon ball thrown by the Armenians their house was ruined and she died together with her mother Asgarova Basti Imamverdi gizi (1947), aunt Gafarova Opheliya Mirzaman gizi (1951 of birth) and brothers Samir (1978) and Yashar (1981).

1979-cu ildə Gədəbəy rayonunun Zamanlı kəndində anadan olmuşdu. VIII sinif şagirdi idi.

1992-ci il aprelin 14-də ermənilərin atdıqları top mərmisi nəticəsində evləri dağılmış, anası Əsgərova Bəsti İmamverdi qızı (1947), bibisi Ofelya (1951), qardaşları Samir (1978) və Yaşar (1981) ilə birlikdə həlak olmuşdur.





## QAFAROV YAŞAR SAHİB OĞLU (11 yaş)

**GAFAROV YASHAR SAHIB OGHLU (11 years old)**

Born on 1981 in Zamanli village of Gadabey region. Studied in VI class. In 14 th of April 1992 as a result of cannon ball thrown by the Armenians their house was ruined and he died together with his mother Basti Imamverdi gizi (1947), aunt Opheliya (1951), brother Samir (1978) and sister Aytekin (1979).

1981-ci ildə Gədəbəy rayonunun Zamanlı kəndində anadan olmuşdu. VI sinifdə oxuyurdu.

1992-ci il aprelin 14-də ermənilərin atdıqları top mərmisi nəticəsində evləri dağılmış, anası Əsgərova Bəsti İmamverdi qızı (1947), bibisi Ofelya (1951), qardaşları Samir (1978) və bacısı Aytəkin (1979) ilə birlikdə həlak olmuşdur.



# HƏSƏNOV QAFUR BƏXTİYAR OĞLU

1976-cı il fevralın 6-da Gədəbəy rayonunun Hacılar kəndində anadan olmuşdu.

1993-cü il aprelin 30-da çöldə mal otararkən erməni yaraqlıları onu avtomat silahı ilə ağır yaralayıblar. Bir neçə saat yaralı halda köməksiz qalıb. Çoxlu qan itirdiyindən Tovuz xəstəxanasında dünyasını dəyişib.

Məzarı doğma kəndindədir.

**HASANOV GAFUR BAKHTIYAR OGHLU (17 years old)**

Born in March 6, 1976 in Hajilar village of Gadabey region. Wounded in 30th of April 1993 by machine carbine of the Armenians when pasturing cattle. For several hours he stayed out of aid. Having lost much blood he changed his world in Tovuz region hospital.

Buried in his native village.



# FÜZULİ RAYONU

Füzuli rayon İcra hakimiyyətinin başçısı Nəbi Muxtarovdan aldığımız məlumata görə, rayonda 25 nəfərədək uşaq erməni vəhşiliyinin qurbanı olmuşdur. Barəsində bilgi əldə etdiyimiz şəhid uşaqlar haqqında kitabda məlumat verilmişdir. Bu fidanların barəsində isə hələlik ətraflı məlumat əldə edə bilmədiyimiz üçün onların ad və soyadlarını qeyd etməyi özümüzə borc bildik: Allah rəhmət eləsin!

1. *Dadaşova Nuranə Əlövsət qızı 1982 - 1993*
2. *Hüseynova Nəcibə Əhməd qızı 1977 - 1993*
3. *Əliyev Adil Radil oğlu 1985-1993*
4. *Əliyeva Aygün Radil qızı 1983-1993*
5. *Eyvazova Aytəkin Şahmar qızı 1987-1994*
6. *Eyvazova Aysəba Şahmar qızı 1989-1994*
7. *Babayev Beyrək Sərkar oğlu 1981-1994*
8. *Əliyeva Xuraman Nuşirəvan qızı 1985-1994*
9. *Talıbov İlkin İmamqulu oğlu 1979 - 1994*

**FUZULI REGION**

As to information of Nabi Mukhtarov, head of Executive Power of Fuzuli region, 25 children were victims of Armenian barbarism in the region. Those about whom we could get information are described in this book. Information about some of them is given in this book. And we issue only first, second name and last name of those about whom we could not get information:

1. **Dadashova Nurana Alovsat gizi - 1982 - 1993**
2. **Huseynova Najiba Ahmad gizi - 1977-1993**
3. **Aliyev Adil Radil oghlu - 1985-1993**
4. **Aliyeva Aygun Radil gizi - 1983-1993**
5. **Eyvazova Aytakin Shahmar gizi - 1987-1994**
6. **Eyvazova Aysaba Shahmar gizi - 1989-1994**
7. **Babayev Beyrek Sarkar oghlu - 1981-1994**
8. **Aliyeva Khuraman Nushiravan gizi - 1985-1994**
9. **Talibov Ilkin Imamgulu oghlu - 1979 - 1994**

## KƏLBƏCƏR RAYONU

Kəlbəcərin şəhid uşaqları haqqındakı bu siyahı Kəlbəcər rayon İcra Hakimiyyətinin başçısı Sahib Əkbərovdan faksla alınmışdır (İcra Hakimiyyəti Gəncə şəhərində yerləşir). Ətraflı məlumat olmadığına görə hələlik həmin siyahını dərc etməklə kifayətlənirik: Allah rəhmət eləsin!

*1. Salmanov Razim Tofiq oğlu 1981-1989, Kəlbəcər*

*2. Orucov Azər Zakir oğlu 1983-1989, Kəlbəcər*

*3. Əsgərov Natiq Məhəmməd oğlu 1980-1989, Kəlbəcər*

*4. Valehov Anar Qardaşxan oğlu 1982-1989, Kəlbəcər*

*5. Əsgərov Səxavət Dəmir oğlu 1977-1989, Kəlbəcər*

*6. Məmmədov Sahib Soltan oğlu 1981-1989, Kəlbəcər*

## KALBAJAR REGION

Sahib Akbarov, the head of the Executive Power of Kalbajar region, gives the following list of martyr children. (The Executive Power is in Ganja). As there is no detailed information about these children, we issue the list of them only.

**1. Salmanov Razim Tofig oghlu - 1981-1989 Kalbajar**

**2. Orujov Azer Zakir oghlu - 1983-1989 Kalbajar**

**3. Asgrov Natig Mahammadov oghlu 1980-1989, Kalbajar**

**4. Valehov Anar Gardashkhan oghlu - 1982-1989 Kalbajar**

**5. Asgerov Sakhavat Damir oghlu - 1977-1989, Kalbajar**

**6. Mammadov Sahib Soltan oghlu 1981-1989, Kalbajar**



*7. Məmişov Taleh Əsgər oğlu 1988-1993, Günəşli kəndi*

*8. Xəlilov Bəxtiyar Rəhman oğlu 1978-1989*

*9. Quliyev Namiq Vəzirxan oğlu 1979-1994, Çələktar kəndi*

*10. Quliyev Məzahir Qara oğlu 1979-1993, Əsrik*

*11. Quliyev Yaşar Qara oğlu 1981-1993, Əsrik*

*12. Quliyeva Aygün Qara qızı 1990-1993, Əsrik*

*13. Alıyeva Ruqiyyə Camal qızı 1988-1992, Ağdaban*

*14. Əliyeva Leyla Telman qızı 1981-1992, Kəlbəcər*

*15. Əvəzov Fehruz Əvəz oğlu 1982-1993, Almalıq*

*16. Kərimova Xatirə Çingiz qızı 1982-1993, Kəlbəcər*

**7. Mamishov Taleh Asger oghlu - 1988-1993, Gunashli**

**8. Khalilov Bakhtiyar Rahman oghlu 1978-1989**

**9. Guliyev Namig Vazirkhan oghlu 1979-1994, Chalaktar village**

**10. Guliyev Mazahir Gara oghlu - 1979-1993, Asrik**

**11. Guliyev Yashar Gara oghlu - 1981-1993, Asrik**

**12. Guliyeva Aygun Gara gizi - 1990-1993, Asrik**

**13. Aliyeva Rugiyya Jamal gizi - 1988-1992, Aghdaban**

**14. Alyyeva Leyla Telman gizi - 1981-1992, Kalbajar**

**15. Avazov Fehruz Avaz oghlu - 1982-1993, Almalig**

**16. Karimova Khatira Chingiz gizi - 1982-1993, Kalbajar**

***Bu uşaqlar Kəlbəcər rayonundan idilər. Gül kimi açıldılar, amma vaxtsız soldular...***

1989-cu il 14 iyulda meydançada futbol oynayarkən vertaliyotun pərləri onları biçib tökdü. Budur həmin uşaqlar:

1. Salmanov Razim Tofiq oğlu 1981-1989, Kəlbəcər
2. Orucov Azər Zakir oğlu 1983-1989, Kəlbəcər
3. Əsgərov Natiq Məhəmməd oğlu 1980-1989, Kəlbəcər
4. Valehov Anar Qardaşxan oğlu 1982-1989, Kəlbəcər
5. Əsgərov Səxavət Dəmir oğlu 1977-1989, Kəlbəcər
6. Məmmədov Sahib Soltan oğlu 1981-1989, Kəlbəcər
7. İbişov Cahid Telman oğlu 1979-1989
8. Xəlilov Bəxtiyar Rəhman oğlu 1978-1989

These children were from Kalbajar region. They bloomed as flowers, unfortunate they faded.

1. Salmanov Razim Tofig oghlu 1981-1989, Kalbajar city.
2. Asgarov Natig Mahammad oghlu 1980-1989, Kalbajar city.
3. Orujov Azer Zakir oghlu 1983-1989, Kalbajar city.
4. Valehov Anar Gardashkhan oghlu 1982-1989, Kalbajar city.
5. Asgarov Sakhavat Damir oghlu 1977-1989, Kalbajar city.
6. Mammadov Sahib Soltan oghlu 1981-1989, Kalbajar city.
7. Ibishov Cahid Telman oghlu 1979-1989.
8. Khalilov Bakhtiyar Rahman oghlu 1978-1989.

***Həmin uşaqlardan hələlik altısının şəklini əldə edə bildik.***



*Əsgərov Natiq Məhəmməd oğlu 1980-1989*



*Əsgərov Səxavət Dəmir oğlu 1977-1989*





*Salmanov Razim Tofiq oğlu 1981-1989.*



*Məmmədov Sahib Soltan oğlu 1981-1989*



*Orucov Azər Zakirov oğlu (1982-1989)*



*İbişov Cahid Telman oğlu (1979-1989)*



***Məmişov Taleh Əsgər oğlu 1988-1993, Kəlbəcər rayonunun Günəşli kəndi. Barəsində hələlik əlavə məlumat əldə edə bilmədik.***

***Taleh Asger Mamishov 1988-1993. Gunashli village of Kalbajar region. For the present time, we could get no other information about him.***

# ERMƏNİ VƏHŞİLİYİ,

# ERMƏNİ TERRORUNUN

# QANLI İZLƏRİ

# BLOODY TRACES OF ARMENIAN BARBARISM, ARMENIAN TERROR

ERMƏNİ VƏHŞİLİYİ! BAXIN, BAXIN, YAXŞI BAXIN! DİQQƏTLƏ BAXIN!

Loot at the Armenian barbarism!



Look! Look! Look at closely! Look attentively!





YARALARINIZ SAĞALACAQ, AMMA ÜRƏYİNİZƏ VURULAN YARALAR ÇƏTİN Kİ, QAYSAQ BAĞLAYA.

Your wounds will recover but the wounds that hurt your feelings hearts can hardly be healed.











Yaralarınız sağalacaq, amma ürəyinizə vurulan yaralar çətin ki, qaysaq bağlaya.

Your wounds will recover but the wounds that hurt your feelings hearts can hardly be healed.



Meşələrdə qurd-quşa yem olan bu zavallıların kimliyini ancaq palpaltarlarına görə müəyyən etmək mümkündür.

Only their clothes can identify these poor children who became prey to wild animals in forests.





Bir maşın meyit. Onların yolunu minlərlə yaxın adamları gözləyir.

A lorry full of dead bodies... Thousands of people are waiting for them.



Allahdan imdadmı diləyirsən cocuq?!

Are you calling God for help, my child?



HANSI NAMƏRD SİZƏ QIYDI?!

What a dishonest man didn't have pity on you?









KİM SİZİ BU GÜNƏ QOYDU?!





Murad və Fuad adlı bu əkiz qardaşlar düz bir ay erməni əsirliyində qalaraq olmazın müsibətlər çəkmişlər.

These twin brothers, Murad and Fuad by name, underwent unbearable tortures while being in Armenian captivity exactly for a month.





Ermənilər azərbaycanlı hamilə qadının qarnını cırıb dünyaya gələcək uşağı öldürüblər.

Having torn up the belly of an Azerbaijani pregnant woman, the Armenians killed at once the baby to be born.



Erməni terrorunun qanlı izləri.

Bloody traces of the Armenian terror.





Ata, intiqamını özüm alacağam, özüm!

Father, I myself will take revenge for you, myself!







## REDAKTORDAN

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ müharibəsinin /bəziləri bunu münaqişə adlandırır. Əgər çoxlu sayda insan qanı tökülürsə bu münaqişə yox müharibədir/ xalqımıza və ölkəmizə vurduğu ziyan ölçüyəgəlməzdir. Tarixi torpaqlarımıza təcavüzün nəticəsində 20 faiz ərazimiz işğal olunmuş, bir milyon Azərbaycan vətəndaşı doğma yurdundan didərgin salınmışdır.

Minlərlə soydaşımız hazırda qaçqın və köçkün vəziyyətinə düşərək çadırlarda yaşamağa məcbur olmuşdur. Rusiyanın hərbi və siyasi yardımına arxalanan erməni bandaları Azərbaycanda analoqu olmayan faciələr törətmiş, minlərlə günahsız insanın qanını axıtmışlar.

Onların içərisində çoxlu sayda uşaqlar və körpələr də vardır. İndi Azərbaycanda hər addımda ayağını, əlini, gözünü itirmiş, müxtəlif dərəcəli bədən xəsarəti almış insanlara rast gəlmək mümkündür ki, bu da ermənilərin azərbaycanlılara qarşı apardıqları işgəncə davasından xəbər verir.

Bu terror aktları uşaqlardan da yan keçməmişdir. Bu günahsız uşaqların hərəsini ölüm bir cür haxlamışdır. Kimisi çöldə qoyun-quzu otararkən, başqa yerlərə gedib-gələrkən düşmən qurğusuna rast gələrək öldürülmüş, yaxud əsir alınaraq işgəncələrlə qətlə yetirilmiş, kimisi öz evlərində, həyətlərində oynayarkən düşmən toplarının mərmilərinə məruz qalmış, bir sözlə hərəsi bir cür öldürülmüşdür.

Məktəbli İlkin Şükürbəyli bu müharibənin Azərbaycan uşaqlarına verdiyi əzab-işgəncədən, ölüm-itimdən bəhs edən bir kitab tərtib etmiş və çox haqlı olaraq adını "Uşaqların günahı nə?" qoymuşdur.

Bu kitabın yazılması və materialların toplanaraq tərtib edilməsi mənim gözlərim qarşısında olmuşdur. Kitabın ərsəyə gəlməsində İlkinin çəkdiyi mənəvi əzab-əziyyətlərin canlı şahidiyəm. Çünki İlkin mənim qardaşımdır. Biz bu kitabın tərtibi ilə bağlı saatlarla fikir mübadiləsi aparmış, günlərlə onun üzərində işləmişik. Təbii ki, ağrıya-ağrıya, ağlaya-ağla-

ya.

Burada 2 aylığından 17 yaşına qədər olan 200-ə yaxın uşağın faciəli həyatı əks olunub. Bu kitabı vərəqləyən və oradakı çoxlu sayda şəkillərə baxan insan ilk andan bu uşaqların halına acıyır və ermənilərin azərbaycanlı uşaqları ilə də işgəncə davası apardığının şahidi olurlar.

Xatırladırıq ki, kitabdakı hadisələr 1988-ci ildən üzü bəriki dövrü əhatə edir. Əgər tarixə nəzər salaraq türk qanına susayan ermənilərin zaman-zaman qətlə yetirdikləri azərbaycanlı uşaqların ümumi siyahısını əldə etmək mümkün olsa, sözsüz ki, bu cild-cild kitablara sığmaz.

Elə sonuncu müharibə zamanı qətlə yetirilən azərbaycanlı uşaqların acı taleyi də bir kitaba sığan deyil. Buna görə də İlkin bu müharibənin Azərbaycan uşaqlarının başına gətirdiyi fəlakətlərdən bəhs edən bir neçə kitabın yazılmasını qarşısına məqsəd qoymuşdur.

Uşaqlıq illərini qaçqınlıq şəraitində yeniyetməliyə çevirən İlkinin kitabı bu sahədə atılan ilk addım və birinci kitabdır.

Bu kitabda yalnız Füzuli, Cəbrayıl, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, Xankəndi, Gədəbəy rayonundan olan şəhid uşaqların bir qismi haqqında məlumat verilir.

Çünki qaçqınlıq, köçkünlük vəziyyəti ilə əlaqədar olaraq şəhid uşaqların valideynlərini axtarıb tapmaq çətinləşmiş və bütün uşaqlar barəsində dolğun məlumat əldə etmək mümkün olmamışdır. Elə uşaqlar da var ki, müəllif hələlik onların ad və soyadını yazmaqla kifayətlənmişdir. Şübhəsiz ki, o, növbəti kitablarında axtarışlarını davam etdirəcək və bu qəbildən olan uşaqlar haqqında dolğun məlumat verəcəkdir.

Ağdam, Qazax, Tovuz, Tərtər və başqa rayonun şəhid uşaqları barəsində yazılar, foto şəkillər də növbəti kitablarımızda öz əksini tapacaqdır.

Kitabın tərtibində sözügedən rayonların icra başçılarının verdikləri məlumatlarla bərabər, həmin rayonların şəhidlərindən bəhs edən kitablardan və oradakı şəkillərdən, o cümlədən bəzi qəzet və jurnal materiallarından da istifadə edilmişdir.



## EDITOR-IN-CHIEF

The damage caused by Upper Garabagh War between Armenia and Azerbaijan to our people and country is considerable. Some people call this war a conflict. But it is not a conflict but a war, when numerous people's blood is shed. As a result of aggression to our historical lands, 20% of our territory is occupied, more than 1 million citizen of Azerbaijan have been dislocated from their native places.

Becoming refugees and forced migrants thousands of our countrymen are compelled to live intends. Relying upon Russia's political and military support the Armenians have caused tragedies of no analogue, shed blood of thousands of people in Azerbaijan.

Now one can at every step meet people who lost his leg or hand or eye and/or damaged in different level, which indicates to Armenians' War of Torture towards Azerbaijanis. This terrorism act did not pass by the children. Death had overtaken each of the innocent children in a way different than that of others. Some - were killed shepherding sheep, some -were killed when were returning from visiting, by enemy who had made an ambush when or taken a prisoner and killed under tortures and some - when having a rest at home or playing in the yard underwent the enemy's cannon balls. In short, each of them had been killed in a different way.

Ilkin Shukurbeyli - a schoolboy has compiled this book dealing with death-loss, tortures, and very truly, called this book "Are the children guilty?"

Before my eyes, the materials for this book were collected and issued this book. I am a vivid witness of Ilkin's troubles to issue this book, because Ilkin is my brother. For hours we exchanged opinions to compile this book, for days worked over it. Naturally, crying, ailing...

This book expresses the tragic life of about 200 children

from 2 months to 17 year of age.

Any man turning over the pages and looking at a number of photos in this book, from the first moment feel sorry for their state and become witness of that the Armenians have also a war of torture with Azerbaijani children.

We remind that the events in this book cover the period from 1988 up to this day. If it was possible to compile the list of Azerbaijani children executed time by time by the Armenians - thirsty for blood then, no doubt, that will find no room in books of volumes.

And the bitter destiny of Azerbaijani children, executed in the last war also would have no room in one book. For this, Ilkin has for an object the issue several books dealing with Azerbaijani children's tragedies caused by this war.

This is the first step and first book issued in this field by Ilkin, whose years of childhood changed into juvenile under refugee condition.

The information in this book covers only a part of martyr children from regions of Fizuli, Jebrayil, Shusha, Khojali, Khojavend, Gubadli, Zangelan, Lachin, Kelbajar, Khankendi, Gedabey. Because, in connection with refugee, dislocation condition to find the parents of martyr children became difficult and to get more detailed information about them was impossible.

Besides, there are children that the author was satisfied to present only names and surnames of them. No doubt, in his next books he will continue his searches and give more detailed information about these children.

And the photos, issues about martyr children from such regions as Aghdam, Gazakh, Tovuz, Terter will find their expression in our next books. Information given by head of executive authorities of relevant regions, the books and photos in them regarding martyrs of those regions, as well as some materials taken from newspapers and journals have been used for this purpose.



## KİTABIN İÇİNDƏKİLƏR

*REDAKTOR* ........................................ *3*

*YAŞIDLARIMA* ........................................ *5*

*FÜZULİ RAYONU* ........................................ *83*

*KƏLBƏCƏR RAYONU* ........................................ *84*

*ERMƏNİ VƏHŞİLİYİ, ERMƏNİ TERRORUNUN QANLI İZLƏRİ* ........................................ *88*

*REDAKTORDAN* ........................................ *99*

**İlkin Şükürbəyli.**
**"Uşaqların günahı nə?!".**
***(Azərbaycan və ingilis dilində)***
***Bakı - 2002.***

İdeyanın müəllifi: **Faiq Şükürbəyli**

Nəşriyyatın baş direktoru: **Asif Rüstəmli**
Kompüterdə yığdı: **Afət Əliyeva**
Texniki redaktoru: **Azər Rüstəmli**

*Translator:* **Gasimova Agja Nadir gizi**
*Tərcüməçi:* **Qasımova Ağca Nadir qızı**

*Yığılmağa verilmiş 12.05.2002. Çapa imzalanmış 6.06.2002. Kağızın formatı 84x108 1/32. Ofset üsulu ilə. Həcmi 6.5. ç.v. Tirajı 500 nüsxə. Sifariş № 25. Qiymәti müqavilə ilə.*

*Kitab ADMİU-nun mətbəəsində çap olunmuşdur.*
*Bakı, H.Zərdabi, 39[a].*










ILKIN SHUKURBEYLI

# ARE THE BABIES GUILTY?!




